

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 26 (868) ▪ 12 iyul 2017 | www.vergiler.az | Qiyməti: 60 qəp.


# Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına səfəri



İyulun 9-da Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində iştirak etmək üçün Türkiyə Respublikasına səfər edib. Dövlətimizin başçısı səfər çərçivəsində bir sıra görüşlər keçirib. İyulun 10-da Prezident İlham Əliyevlə Serbiya Prezidenti Aleksandr Vuçiç, Türkiyənin Baş naziri Binəli Yıldırım, Albaniyanın Baş naziri Edi Rama, Bolqarıstanın Baş naziri Boyko Borisov və Dünya Neft Şurasının prezidenti Cozef Tot arasında qısa söhbətlər olub.

## Azərbaycanın tərəfdaş ölkələrlə birlikdə icra etdiyi layihələr bir çox ölkələrin enerji balanslarını və enerji təhlükəsizliyini təmin edəcək

İyulun 10-da İstanbulun ev sahibliyi etdiyi 22-ci Dünya Neft Konqresi öz işinə başlayıb. Dünya Neft Şurasının sədri Cozef Tot 1933-cü ildə yaradılmış bu qurumun dünya neft sektorunun bütün sahələrini əhatə etdiyini və hər üç ildən bir keçirildiyini bildirib. Bu dəfə İstanbulda «Enerji gələcəyimizə körpülər» devizi altında təşkil olunan 22-ci Dünya Neft Konqresinə 100-dən çox ölkədən 50 nazirin, 5 mindən çox dövlət nümayəndəsinin və şirkət rəhbərlərinin qatıldığını deyən C.Tot Konqres çərçivəsində aparılan müzakirələrin faydalı olacağına əminliyini ifadə edib.

Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak, Bolqarıstanın Baş naziri Boyko Borisov, Albaniyanın Baş naziri Edi Rama, Türkiyənin Baş naziri Binəli Yıldırım, Serbiya Prezidenti Aleksandr Vuçiç öz çıxışlarında Konqresin etibarlı enerji tədarükünün möhkəmlənməsinə və beynəlxalq əməkdaşlığa töhfə verəcəyinə əminliklərini ifadə ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxış edib. Türkiyənin bu gün dünya miqyasında böyük bir güc olduğunu vurğulayan dövlətimizin başçısı qardaş ölkənin dünya gündəliyinin bir çox məsələlərində həlledici sözə malik olduğunu qeyd edib: «Bütün bu uğurlar mənim qardaşım Prezident Ərdoğanın liderliyi ilə əldə edilibdir. Bu gün Türkiyə uğurla, sürətlə inkişaf edir. Türkiyə Prezident Ərdoğanın liderliyi ilə çox böyük və şərəfli yol keçmişdir. Bugünkü toplantı bunun təzahürüdür. Türkiyə gücləndikcə biz də güclənirik, biz də sevinirik.

### Türkiyə-Azərbaycan birliyi bölgəyə sabitlik, rifah gətirir, yeni iş yerlərinin yaradılmasına xidmət göstərir, təhlükəsizlik tədbirlərini gücləndirir və geniş əməkdaşlığa qapılar açır

Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birinin yanındadır. Bizim əməkdaşlığımız çoxşaxəlidir və bütün sahələri əhatə edir. O cümlədən enerji sahəsində Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi bir çox önəmli strateji layihələrin icrasına imkan verdi. Onların arasında Bakı-Tbilisi-Ceyhan neft kəmərini, Bakı-Tbilisi-Ərzurum qaz kəmərini və TANAP layihəsini xüsusi qeyd etmək istərdim. Bu layihələr nəinki regionumuzun, dünyanın enerji xəritəsini yenidən tərtib etdi».

Azərbaycanın qədim neft diyarı olduğunu deyən dövlətimizin başçısı qeyd edib ki, əslində, biz hesab edirik ki, Azərbaycan neftin vətənidir: «Çünki dünyada sənaye üsulu ilə ilk dəfə neft 1846-cı ildə məhz Azərbaycanda, Bakıda çıxarılmışdır. Ondan bir əsr sonra - XX əsrin ortalarında yenə də dünyada ilk dəfə olaraq dənizdən neft Xəzər dənizinin Azərbaycan sektorunda Azərbaycan neftçiləri tərəfindən hasil edilmişdir. Lakin o vaxt Azərbaycan müstəqil deyildi və biz təbii sərvətlərimizdən tam istifadə edə bilmirdik. Ancaq müstəqillik dövründə Azərbaycan xalqı öz taleyinin, öz təbii sərvətlərinin sahibi oldu. Müstəqillik dövründə bu təbii sərvətlər ölkəmizin inkişafına, xalqın rifah halının yaxşılaşmasına xidmət etməyə başlamışdır. Müstəqilliyimizin ilk illərində - 1994-cü ildə Azərbaycan ilk dəfə olaraq Xəzər dənizindəki karbohidrogen yataqlarını xarici sərmayədarların üzünə açdı. 1994-cü ildən etibarən Azərbaycanın neft sənayesinə böyük sərmayə qoyulmağa başlanmışdır. Eyni zamanda, 1994-cü il ona görə əlamətdar bir tarixdir ki, məhz o ildə «Əsrin kontraktı» imzalanmışdır».

Prezident İlham Əliyev bildirib ki, artıq Azərbaycan müasir dövrdə neft və qaz hasil və ixrac edən ölkəyə çevrilmişdir: «Bizim ölkəmiz dünya bazarlarına çıxış əldə etmək üçün neft-qaz kəmərləri tikməli idi. Çünki bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Bu məqsədlə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri və 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmişdir. Ondan bir neçə il əvvəl Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəməri tikilmişdir. Beləliklə, Azərbaycanın təbii resurslarının dünya bazarlarına çıxarılması üçün kifayət qədər böyük şəbəkə yaradılmışdır. 2006-cı ildə Ceyhanda qardaşım Prezident Ərdoğanla bir yerdə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışında iştirak edirdik və o vaxt da biz gələcək planlar haqqında düşünürdük, fikir mübadiləsi aparırdıq. O vaxtdan bu günə qədər bizim bütün planlarımız uğurla reallaşır. Çünki biz bu gün Cənub Qaz Dəhlizi kimi meqa layihənin üzərində çalışırıq, onun da təməli Türkiyədə, bu gözəl İstanbul şəhərində qoyulmuşdur. 2012-ci ildə qardaşım Prezident Ərdoğanla TANAP layihəsi haqqında müqaviləni imzaladıq. TANAP layihəsi Cənub Qaz Dəhlizinin özəyidir. Məhz ondan sonra bütün digər istiqamətlər üzrə işlər başlamışdır. Bu gün «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra edilir».

Azərbaycan Prezidenti onu da vurğulayıb ki, bu gün qaz amili dünyada enerji təhlükəsizliyini təmin edən əsas şərtdir. Bu baxımdan Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində öz töhfəsini verməkdədir: «Azərbaycan qazı Avropaya nəql ediləcək yeganə yeni qaz mənbəyidir. Çünki qalan bütün qaz mənbələri fəaliyyətdədir. Artıq yeni mənbə aşkarlanıbdır. Bu qaz ehtiyatları yeni xətlə Avropa bazarlarına çıxarılacaqdır. Yəni, bizim üstünlüyümüz ondan ibarətdir ki, burada hər iki amil var. Bu da enerji şaxələndirilməsi istiqamətində çox ciddi bir addımdır. Azərbaycan öz məsuliyyətini dərk edir. Biz yaxşı başa düşürük ki, tərəfdaş ölkələrlə birlikdə icra etdiyimiz layihələr bir çox ölkələrin enerji balanslarını və enerji təhlükəsizliyini təmin edəcək, onlara kömək edəcək. Biz bu məsuliyyəti öz üzərimizə götürərək ümid edirik ki, yaxşı nəticələr göstəririk».

Neft gəlirlərinin iqtisadiyyatın şaxələndirilməsində və inkişafında mühüm rolundan danışan dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan «qara qızıl»ı insan kapitalına çevirməyi qarşıya məqsəd qoyub və buna uğurla nail olur: «Biz neftdən əldə edilən gəlirləri, ilk növbədə, çox şəffaf şəkildə qoruyuruq. Azərbaycan Dövlət Neft Fondu dünyada mövcud olan neft fondları arasında ən şəffaf fondlardan biridir və Birləşmiş Millətlər Təşkilatının da mükafatına layiq görülmüşdür. Yəni, birinci şərt budur - tam şəffaflıq. Bizim Neft Fondumuzda yığılan vəsaitlə bağlı məlumatlar mütəmadi qaydada ictimaiyyətə çatdırılır. İkinci məsələ: neftdən əldə edilən gəlirlərdən düzgün istifadə olunmalıdır. Biz neftdən əldə edilən gəlirləri, ilk növbədə, infrastruktur layihələrinə yönəltdik. Bu gün biz nəinki nefti, qazı, eyni zamanda son illər ərzində tikdiyimiz onlarla elektrik stansiyasının istehsal etdiyi enerjini də ixrac edirik. Biz sosial infrastruktur layihələrinə böyük vəsait qoyduq - məktəb, xəstəxana tikintisi. Yoxsulluqla çox ciddi mübarizə aparılır. Neft sektoru, əslində, çox iş yeri yaradan sektor deyil. Amma buna baxmayaraq, biz neftdən əldə olunan gəlirləri digər sektorlara yönəldərək yoxsulluğu, işsizliyi aşağı səviyyəyə sala bildik və bu gün bu, təxminən 5-6 faiz səviyyəsindədir. Yəni, düzgün siyasət və düzgün atılan addımlar nefti həm faydaya çevirə bilər, həm də bu sərvət ölkələr üçün problem yarada bilər. Hesab edirəm ki, Azərbaycan təcrübəsi uğurludur. Bizim ölkəmizə xarici sərmayə də böyük həcmdə qoyulur. Öz növbəmizdə, biz də xarici ölkələrə sərmayə qoyuruq. Burada da birinci yerdə qardaş ölkə Türkiyədir. Türkiyənin enerji sektoruna bu günə qədər 10 milyard dollar sərmayə qoyulubdur. Növbəti illərdə bu rəqəm təxminən iki dəfə artacaqdır».

Azərbaycan Prezidenti enerji layihələrinin bölgədə sülh və əməkdaşlığa böyük töhfə verəcəyinə əmin olduğunu diqqətə çatdırıb: «Enerji təhlükəsizliyi deyəndə, əlbəttə ki, icra etdiyimiz layihələr yada düşür. Bir daha çıxışımın əvvəlinə qayıtmaq istəyirəm. Türkiyə-Azərbaycan birliyi, dostluğu, qardaşlığı təkcə iki ölkənin mənfəətini, uğurlu gələcəyini müəyyən etmir. Bunun bölgəyə çox böyük təsiri var. Bu, bölgəyə sabitlik, rifah gətirir, yeni iş yerlərinin yaradılmasına xidmət göstərir, təhlükəsizlik tədbirlərini gücləndirir və geniş əməkdaşlığa qapılar açır».

Konqresdə çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan neftinin Aralıq dənizinə çatdırılmasını təmin edən Bakı-Tbilisi-Ceyhan, həmçinin Azərbaycan təbii qazının Türkiyəyə və Avropaya nəqlini mümkün edən Bakı-Tbilisi-Ərzurum boru kəmərlərinin inşasının uğurla başa çatdırıldığını qeyd edib: «Bu layihənin əsas hissələrindən biri olan Trans-Anadolu qaz boru kəməri, yəni TANAP vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya isə 10 milyard kubmetr Azərbaycan qazı ixrac olunacaq. TANAP kəmərinin gələn ilin ortalarında fəaliyyətə başlaması ilə Azərbaycanla yanaşı, Xəzər və hətta gələcəkdə Orta Şərq regionundan da ölkəmizə və Avropaya təbii qaz nəqlinin imkanları yaranacaq. TANAP xəttinin davamı olan Trans-Adriatik qaz boru kəməri layihəsinin - TAP-ın da planlaşdırıldığı kimi, inşallah, 2020-ci ildə istismara verilməsi gözlənilir. Bu məsələdə dostum cənab Prezident İlham Əliyevin, həm də layihədə iştirak edən digər ölkələrin və şirkətlərin rəhbərlərinin tam qətiyyətli mövqeyini məmnuniyyətlə görürük».

# Türkiyə və Azərbaycan bütün məsələlərdə həmrəydir

Prezident İlham Əliyev İstanbula səfəri çərçivəsində iyulun 9-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb. Görüşdə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanıb, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin yüksək səviyyədə olduğu bildirilib. Söhbət zamanı ölkələrimiz arasında energetika sahəsində strateji əhəmiyyətli layihələrin uğurla icra olunduğu qeyd edilib, xüsusilə TANAP layihəsinin gələn il başa çatacağı məmnunluqla vurğulanıb.

Azərbaycan və Türkiyə prezidentləri ölkələrimizin hərbi sahədə əməkdaşlığının daha da genişləndirilməsi və möhkəmləndirilməsi haqqında fikir mübadiləsi aparıblar. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edilib. Prezident İlham Əliyev son vaxtlar təmas xəttində Ermənistanın təxribatları və hərbi cinayətləri barədə Türkiyə Prezidentinə ətraflı məlumat verib. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin, həmişə olduğu kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həllinə dəstək verdiyini vurğulayıb.

# Azərbaycan Prezidentinin ABŞ-ın dövlət katibi ilə görüşü

İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda ABŞ-ın dövlət katibi Reks Tillersonla görüşüb. Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi və enerji sahələrində uğurla inkişaf etdiyi qeyd olunub. Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edilib. Prezident İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyini bir daha bildirib, Ermənistanın təmas xəttində son hərbi təxribatı haqqında məlumat verib.

Dövlətimizin başçısı XXIV Beynəlxalq Xəzər Neft və Qaz Sərgi və Konfransının açılışı münasibətilə göndərdiyi təbrik məktubuna görə ABŞ Prezidenti Donald Trampa minnətdarlığının çatdırılmasını Reks Tillersondan xahiş edib. Dövlətimizin başçısı bu məktubu ABŞ-ın Azərbaycanın enerji siyasətinə, xüsusilə «Cənub Qaz Dəhlizi» layihəsinə dəstəyi kimi dəyərləndirib.

ABŞ-ın dövlət katibi Azərbaycanın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda fəaliyyətini, eyni zamanda ölkəmizin bu əməliyyatlarda logistik və nəqliyyat dəhlizi rolunu yüksək qiymətləndirib. Söhbət zamanı, həmçinin, ölkəmizdə həyata keçirilən siyasi və iqtisadi islahatlar, demokratiyanın inkişafı ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparılıb.

# İkitərəfli münasibətlərin perspektivləri müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Artukbek Yusupovu və Özbəkistan Müsəlmanları İdarəsinin sədri, müfti Usmobxon Alimovu qəbul edib.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli münasibətlərin yaxşı perspektivlərə malik olduğu, hər iki tərəfin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğu diqqətə çatdırılıb. Dövlətimizin başçısı dini qurumlar sahəsində də təcrübə mübadiləsi və əməkdaşlıq ilə əlaqədar müzakirə edilən məsələlərin əhəmiyyətini vurğulayıb.

## BU NÖMRƏMİZDƏ


BÜDCƏ TAPŞIRIQLARI TAM HƏCMDƏ İCRA EDİLİB — 2

TƏDRİS-METODİKİ ŞURANIN İCLASI KEÇİRİLİB — 3

SAHİBKARLIĞA DƏSTƏK TƏDBİRLƏRİ DAVAM ETDİRİLİR — 4

QEYRİ-NEFT İXRACININ MÜASİR PLATFORMASI - RƏQƏMSAL TİCARƏT QOVŞAĞI... — 5

# Büdcə tapşırıqları tam həcmdə icra edilib

2017-ci ilin yanvar-iyun ayları ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 3 milyard 352 milyon 375,58 min manat məbləğində vəsait ödənilib. Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz tapşırığına 102,5 faiz əməl olunub.

# Vətəndaş müraciətlərinə diqqətlə yanaşılır

2017-ci ilin birinci yarımilliyində vergi orqanlarına vətəndaşlar tərəfindən 50.902 müraciət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,7% çoxdur. Onlardan 94,8%-i ərizə, 5%-i şikayət, 0,2%-i təklif xarakterli olub.

Müraciətlərin 41,1%-i müxtəlif arayışların alınması; 28,6%-i kameral vergi yoxlamaları; 11,2%-i vergi borcları; 2,6%-i vergi qanunvericiliyinin tətbiqi; 2,5%-i vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti; 1,9%-i səyyar vergi yoxlamaları, qalanları isə digər məsələlərlə bağlı olub. Bütün müraciətlərə vaxtında baxılıb və 72,9%-i müsbət həll olunub.

Hesabat dövründə vergi orqanları tərəfindən ümumilikdə 2003 vətəndaş qəbul edilib, onlara qanunvericilik çərçivəsində lazımi kömək göstərilib və ya müvafiq izahatlar verilib.

# Resurslardan optimal istifadə və vergi ödəyicilərinə xidmət sahəsində Fransa və İspaniya təcrübəsi öyrənilir

«Resurslardan optimal istifadə edilməsi və vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsi çərçivəsində vergilər nazirinin müşaviri Elçin Məmmədovun rəhbərliyi ilə 5 nəfərdən ibarət nümayəndə heyəti Fransa Respublikasına və İspaniya Krallığına səfər etmişdir.

Fransaya səfər zamanı nümayəndə heyətinə Baş Maliyyə Direktoratlığı və Fransa Respublikasının vergi administrasiyası tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlər, eləcə də Maliyyə Direktoratlığının İctimaiyyətlə Əlaqələr Strategiyası Xidmətinin və Kommunikasiya Mərkəzinin təqdimatları nümayiş etdirilmişdir. Səfər çərçivəsində Azərbaycan nümayəndələri bir sıra görüşlər keçirmiş, İvelin vilayətində və Lil şəhərində yerləşən respublika səviyyəli mərkəzlərdə olmuşlar.

İspaniyaya səfər zamanı isə Azərbaycanın nümayəndə heyətinə Krallığın Maliyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən Vergi Xidməti Dövlət Agentliyinin Vergi İdarəetməsi Departamenti tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlər, bu sahədə əsas yanaşmalar; Planlaşdırma və İnstitusional Münasibətlər Xidmətinin könüllü əməletmənin ölçülməsində rolu, İnformasiya texnologiyaları idarəsi ilə Koordinasiya idarəsi tərəfindən müasir idarəetmənin təşkili; İnformasiya Texnologiyaları Departamentində vergi ödəyicilərinə xidmət sahəsində tətbiq olunan informasiya texnologiyaları, məlumat bazaları və təhlil sistemləri, habelə Baş Daxili Audit və Kadastr Baş Direktoratlığı tərəfindən həyata keçirilən xidmətlər barədə təqdimatlar nümayiş etdirilmişdir.

Səfərin sonuncu günü Sevilya şəhərində yerləşən İspaniya Vergi Administrasiyasının Regional Direktoratlığına gələn Azərbaycan nümayəndə heyəti burada daimi əsaslarla fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzi və digər strukturlarla tanış olmuşlar.

# Maliyyə Sabitliyi Şurasının növbəti iclası

Ölkədə makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi məqsədilə yaradılmış Maliyyə Sabitliyi Şurasının növbəti iclasında «Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi»nin «Maliyyəyə çıxışın asanlaşdırılması» istiqaməti üzrə strateji hədəfin reallaşdırılmasını nəzərdə tutan prioritetlərə uyğun Tədbirlər Planı müzakirə olunub. Plan Kənd Təsərrüfatı Nazirliyi, Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası, İqtisadiyyat Nazirliyi və Dövlət Neft Fondunun nümayəndələrindən təşkil olunmuş işçi qrup tərəfindən birgə hazırlanıb, həmçinin beynəlxalq maliyyə qurumlarının texniki yardım çərçivəsində hazırladığı sənədlərdən də istifadə edilib.

Tədbirlər Planında kənd təsərrüfatı üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə innovativ və girovsuz kreditlərin tətbiqi mexanizmlərinin hazırlanması, aqrar sektora təsir edən risklərin idarə olunması, aqrar sığortanın inkişaf etdirilməsi və investisiya qoyuluşlarının təşviqi, kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə savadlılığının artırılması və s. konkret tədbirlər nəzərdə tutulub. Tədbirlər planının reallaşdırılması kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsinə və son nəticədə aqrar sahəyə investisiya qoyuluşlarının təşviqinə imkan verəcəkdir. Kənd Təsərrüfatı Nazirliyinə tapşırılıb ki, aparılmış müzakirələrin nəticələri, verilmiş rəy və təkliflər nəzərə alınmaqla layihənin yekun variantı hazırlansın və Şuranın növbəti müzakirəsinə təqdim edilsin.

Tədbirdə, həmçinin, cari ilin ötən dövründə ölkədə makroiqtisadi vəziyyət, maliyyə sabitliyinin dayanıqlığının dinamikasında müşahidə olunan pozitiv meyillər və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**Tədbirlər planının reallaşdırılması kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsinə və son nəticədə aqrar sahəyə investisiya qoyuluşlarının təşviqinə imkan verəcəkdir**

# Korporativ idarəetmə üzrə təlim-seminar

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİKTM) dünyanın aparıcı audit şirkətlərindən olan KPMG ilə birgə korporativ idarəetmə üzrə təlim-seminar keçirib. İİTKM-nin mətbuat xidmətindən verilən məlumata görə, seminarda korporativ idarəetmənin inkişafı, aktuallığı, standartları və əsas prinsipləri üzrə beynəlxalq təcrübə nəzərdən keçirilib, mövzu ətrafında müzakirələr aparılıb. Təlim zamanı effektiv korporativ idarəetmənin əsas elementləri, yəni yetkinlik səviyyəsi, müşahidə (direktorlar) şurası və idarə heyətinin səlahiyyətləri ətraflı təhlil olunub, korporativ idarəetmənin təkmilləşdirilməsi və həyata keçirilməsi məsələləri barədə söhbət aparılıb. Bununla yanaşı, seminar iştirakçılarına daxili audit, daxili nəzarət, risklərin idarə olunması sistemləri və dayanıqlı inkişafın təmin olunması barədə məlumat verilib.

Mərkəzin icraçı direktoru Vüsal Qasımlı qeyd edib ki, KPMG-nin nüfuzlu ekspertlərinin iştirakı ilə belə bir seminarda iştirak etmək dövlət qurumları və şirkətlərin nümayəndələrinə imkan verir ki, burada mənimsədikləri yeniliklər vasitəsilə öz işlərini daha da səmərəli və effektiv yerinə yetirsinlər. Bununla qurumların xidmətlərindən istifadə edən əhali qruplarının məmnunluğu daha da artacaq.

KPMG Azərbaycan ofisinin idarəçi partnyoru Vüqar Əliyev korporativ idarəetmə prinsiplərinin şirkət üçün əsas strateji istiqamətlərdən biri olduğunu vurğulayaraq, Azərbaycanda özəl və dövlət şirkətlərində korporativ idarəetmə standartlarının tətbiqi istiqamətində müxtəlif sahələrdə geniş əməkdaşlığın aparıldığını təlim iştirakçılarının nəzərinə çatdırıb. O, növbəti illərdə də bu istiqamətdə əməkdaşlığın inkişaf etdirilməsinin şirkətin əsas prioritet sahələrindən biri olacağını qeyd edib.

Ödənişsiz təşkil olunan təlim-seminarda İqtisadiyyat Nazirliyi, Milli Elmlər Akademiyası, Dövlət Neft Fondu, Maliyyə Bazarlarına Nəzarət Palatası, «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, «Aztelekom» MMC, Dənizkənarı Bulvar İdarəsi kimi qurumların səlahiyyətli nümayəndələri iştirak ediblər. Seminarın reallaşması Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 sentyabr tarixli «Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamının tələblərindən irəli gələn tapşırıqların həyata keçirilməsi məqsədi daşıyır.

**Özəl və dövlət şirkətlərində korporativ idarəetmə standartlarının tətbiqi istiqamətində müxtəlif sahələrdə geniş əməkdaşlıq həyata keçirilir**

# Muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı artıb

Dövlət Statistika Komitəsinin açıqladığı məlumata görə, 2017-ci il iyunun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1525,2 min nəfər olmuş, onlardan 886,4 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 638,8 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 21,9 faizi təhsil, 19,0 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,6 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 7,1 faizi tikinti, 4,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 10,8 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2017-ci ilin yanvar-may aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,3 faiz artaraq 520,1 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# Uğurlu karyera üçün ilk addım...

## İyulun 11-də Vergilər Nazirliyinin Tədris Mərkəzində «ASAN könüllüləri»nə sertifikatların təqdim edilməsi mərasimi keçirilib

**Tədris Mərkəzinin rəisi Əli Həsənov tədbir iştirakçılarını salamlayaraq bildirib ki, insan resurslarının idarə edilməsi, kadr hazırlığı, ixtisasartırma, işə qəbul prosesinin şəffaflaşdırılması, peşə etikasına əməletmə səviyyəsinin yüksəldilməsi, idarəetmə sisteminin elektronlaşdırılması nazirliyin qarşıya qoyduğu əsas prioritetlərdəndir. Vergi orqanlarında təşəbbüskar, innovativ yeniliklərə meyilli olan kadrlar hesabına vergi inzibatçılığının daha da təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir.**

Vergilər Nazirliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi («ASAN xidmət») arasında səmərəli əməkdaşlığın qurulmasından bəhs edən Əli Həsənov «ASAN könüllüləri» layihəsini bu istiqamətdə ən yaxşı nümunə adlandırıb. Qeyd olunub ki, ötən il iyulun 28-də imzalanmış müqaviləyə əsasən, 2017-ci ilin ilk 6 ayı ərzində «ASAN xidmət» mərkəzlərinə müqavilə əsasında cəlb edilmiş 30 nəfər «ASAN könüllü» dövlət vergi orqanlarında istehsalat təcrübəsi keçib, Azərbaycanda vergi orqanlarının fəaliyyət istiqamətləri ilə yaxından tanış olublar.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev bildirib ki, «ASAN xidmət» innovasiya və insan resurslarının inkişafı sahəsində dövlət orqanları və özəl sektorla sıx əməkdaşlığa önəm verir. Bu sahədə «ASAN könüllüləri» hərəkatı xüsusi əhəmiyyət kəsb etməkdədir. Hərəkatın tədris proqramı da çox əhatəli və innovativdir. «Master 1» və « Master 2» qrupları üzrə təsnifləşdirilən tədris proqramına əsasən, könüllülərin gələcək fəaliyyətində uğur qazanmaları üçün praktiki biliklərlə təmin edilməsi, maarifləndirilməsi, intellektual inkişafı, istedadlı gənclərin üzə çıxarılması nəzərdə tutulur.

Səkkiz həftə ərzində həyata keçirilən «Master 1» proqramı çərçivəsində könüllülər müxtəlif təlimlərdə iştirak edir və praktiki vərdişlərə yiyələnirlər. Bununla yanaşı, gənclər arasında komandada iş bacarıqları formalaşdırılır. Proqram çərçivəsində gənclərin fəaliyyəti xüsusi hazırlanmış qaydalara uyğun qiymətləndirilir və yekunda iştirakçılar 3 növ sertifikatdan birini və xasiyyətnamə əldə edirlər.

«Master 2» pilləsi üzrə isə «ASAN könüllüləri»nin peşə bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə onlar öz ixtisas sahələrinə, maraq dairələrinə uyğun olaraq bir neçə ay ərzində müxtəlif dövlət və özəl qurumlarda təcrübə keçir, təlimlərdə iştirak edirlər. Proqramı başa vurmuş iştirakçıların fəaliyyəti ilə bağlı müvafiq qurum tərəfindən rəy verilir və fəaliyyəti məqbul sayılan iştirakçılar sertifikatlarla təltif olunurlar.

Ü.Mehdiyev bildirib ki, Vergilər Nazirliyi ilə uğurlu əməkdaşlıq çərçivəsində «ASAN könüllüləri» vergi orqanlarının fəaliyyəti və iş təcrübəsini öyrənmək imkanı əldə ediblər. Onlar vergi qanunvericiliyi və vergi ödəyicilərinə göstərilən müasir xidmət çeşidləri ilə yaxından tanış olublar və bu, könüllülərin gələcək karyerasında mühüm rol oynayacaq.

Sonra «ASAN könüllüləri»nə Vergilər Nazirliyində istehsalat təcrübəsi keçmələrinə dair sertifikatlar təqdim edilib. Mərasimin sonunda Vergilər Nazirliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi arasında gələcək əməkdaşlığa dair Memorandum imzalanıb. Sənədi Tədris Mərkəzinin rəisi Əli Həsənov və Agentliyin sədr müavini Ülvi Mehdiyev imzalayıblar.



Vergilər Nazirliyi ilə uğurlu əməkdaşlıq çərçivəsində «ASAN könüllüləri» vergi orqanlarının fəaliyyəti və iş təcrübəsini öyrənmək imkanı əldə ediblər

### Sertifikata layiq görülmüş «ASAN könüllüləri»nin təəssüratları:

***Aygün Rəhmanova:*** «Vergi orqanlarının fəaliyyəti ilə əyani tanışlıq vergi barədə zəngin məlumatlar əldə etmək, bu dövlət orqanının iş prinsipini mənimsəmək baxımından çox əlamətdardır. Vergi sistemində qazandığımız təcrübə peşəkar gənc kadrların formalaşması baxımından yaxşı məktəb olmaqla gələcəkdə dövlət qulluğuna qəbul zamanı öz faydasını verə bilər. Könüllülük hərəkatında iştirak edən hər kəsi bu cür layihələrə qoşulmağa dəvət edirəm».

***Sərxan İsmiyev:*** «Bu cür layihələr gənclərə öz istedadlarını üzə çıxarmağa şərait yaradır. Biz nəzəri biliklərlə yanaşı, praktiki bilik və bacarıqlara yiyələnirik. Vergilər Nazirliyinə minnətdarlığımı bildirmək istəyirəm ki, könüllülərə şəxsi keyfiyyətlərinə uyğun karyera qurmağa, gələcəkdə peşəkar mütəxəssis kimi formalaşmağa kömək göstərir».

***Şərqiyyə Məmmədova:*** «Vergilər Nazirliyi bizə vergi sahəsinə aid hərtərəfli məlumat əldə etmək, təcrübə qazanmaq şansı verdi. Bu sertifikat gələcəyə açılan uğur qapısı deməkdir. İnanıram ki, nə vaxtsa vergi orqanlarında çalışacam və buna görə, «ASAN könüllüləri» layihəsinin müəlliflərinə və Vergilər Nazirliyinin rəhbərliyinə təşəkkürlərimi bildirmək istəyirəm».

***Müxəyyam Əşrəfli:*** «Vergi orqanlarının çox maraqlı və məsuliyyətli iş xüsusiyyətləri var. Onlardan çox şey öyrəndim, xüsusilə də vətəndaşlarla ünsiyyətin, davranışın ən sivil formada qurulduğunun şahidi oldum. Vergi işçiləri ilə bir arada olmaq çox şərəflidir. Bu, həyatımızda uğurlu bir keçidə əla fürsət deməkdir».

***Aytac Quliyeva:*** «ASAN könüllüləri» layihəsində iştirak etməyi uğurlu başlanğıc hesab edirəm. Vergilər Nazirliyində istehsalat təcrübəsi keçmək dövlət orqanlarında idarəetməni mənimsəməkdə çox faydalıdır. Burada vergiyə dair bilik və universal vərdişlərə, iş təcrübəsinə yiyələndik. Biz gənclərə dəstək olan hər kəsə minnətdarıq».

**Elbrus CƏFƏRLİ**

# Tədris-Metodiki Şuranın iclası keçirilib

Vergilər Nazirliyi yanında Tədris-Metodiki Şuranın (TMŞ) növbəti iclasında Şuranın sədri, vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov TMŞ-nin fəaliyyət istiqamətləri barədə məlumat vermişdir. Qeyd etmişdir ki, daimi fəaliyyət göstərən Şura dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təkmilləşdirilməsini və ixtisaslarının artırılmasını, vergi siyasətinə dair elmi tədqiqatların aparılmasının dəstəklənməsini təmin edir. Vergilər Nazirliyinin tədris konsepsiyasına uyğun olaraq təlim, tədris və elmi-tədqiqat işlərinin prioritet istiqamətlərinin müəyyən edilməsi də TMŞ-nin səlahiyyətinə aiddir: «Şura tədris planlarına rəy verir və onları müəyyən edilmiş qaydada təsdiq üçün vergilər nazirinə təqdim edir. Dinləyicilərin peşə hazırlığı səviyyəsinin artırılmasına təsir edə bilən müasir üsulların və texnologiyaların, o cümlədən yeni təlim formalarının tətbiq edilməsi istiqamətində işlər görülür. Şura tərəfindən nazirliyin tədris və təlim prosesinin davamlı inkişafının istiqamətləri müəyyən edilir və müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı proqram təminatının təkmilləşdirilməsi üçün müvafiq strukturlar qarşısında təkliflər irəli sürülür. Şura, həmçinin, tədris-metodiki, elmi və digər vəsaitlərin nəşrinə də kömək göstərir.

Vergilər Nazirliyində 2017-ci ilin ilk 6 ayı ərzində tədris və təlim sahəsində, eləcə də insan resurslarının inkişafı istiqamətində görülmüş işlər barədə çıxış edən İnsan resursları departamentinin Təhsil və inkişaf şöbəsinin rəhbəri Nərmin Mirzəyeva yarım il ərzində təşkil edilmiş təlim kursları haqqında məlumat verərək bildirmişdir ki, dövr ərzində 27-si onlayn olmaqla, təşkil edilmiş 77 təlim və kurslara 2331 nəfər iştirakçı cəlb olunmuşdur. Bildirilmişdir ki, potensiallı kadrları vergi orqanlarına cəlb etmək, onların bilik və bacarıqlarından təyinatı üzrə istifadə etməklə vergi orqanlarının fəaliyyətində səmərəliliyi artırmaq məqsədilə «2017-2019-cu illərdə Azərbaycan Respublikasının dövlət vergi orqanlarında insan resurslarının inkişafı Strategiyası»nın layihəsi hazırlanmışdır: «Layihəyə əsasən, vergi orqanlarının spesifik tələblərinin və kadrların fərdi göstəricilərinin nəzərə alınması, insan resurslarının inkişafına yatırılan investisiyanın yüksək səviyyədə geriyə dönüşünün təmin edilməsi, insan resurslarının idarə edilməsi institutlarının qarşılıqlı şəkildə sıx əlaqələndirilməsi, əməkdaşların peşəkarlığının, motivasiyasının və özünkişafa həvəsinin artırılması nəzərdə tutulur.

Dövlət vergi orqanlarında fəaliyyət sahələri üzrə bilik və bacarıqların sertifikatlaşdırılmasının təşkili prosesinin vəziyyəti barədə çıxış edən Şuranın katibi, Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisinin 1-ci müavini Ceyhun Mehdiyev qeyd etmişdir ki, vergi qanunvericiliyinə və normativ-hüquqi aktlara əlavə və dəyişikliklərin edilməsi, vergi orqanlarında aparılan struktur və kadr islahatları ilə əlaqədar olaraq Tədris Mərkəzinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, dövlət vergi orqanlarında kadr hazırlığının təşkili istiqamətində bir sıra tədbirlər həyata keçirilmiş, «Dövlət vergi orqanlarında müvafiq fəaliyyət sahələri üzrə bilik və bacarıqların sertifikatlaşdırılması Qaydaları», «Vergilər Nazirliyinin Tədris Mərkəzində imtahan prosesinin təşkili və keçirilməsi Qaydaları», Tədris Mərkəzinin yaradılmasının 15 illiyi ilə əlaqədar Tədbirlər Planı və s. təsdiq edilmişdir. Bildirilmişdir ki, nazirlikdə aparılmış struktur islahatları ilə əlaqədar sertifikatlaşdırılması zəruri hesab edilən yeni sahələr müəyyənləşdirilmişdir. Bu sahələrə aiddir:

- Vergi qanunvericiliyinin icrasına nəzarət;
- Vergi öhdəliklərinin icrasına nəzarət;
- Bəyannamələrin, daxilolmaların və risklərin təhlili;
- Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu;
- Vergi ödəyicilərinin uçotu işlərinin təşkili;
- Vergi ödəyicilərinin qeydiyyatı işlərinin təşkili;
- Vergi cinayətlərinin ibtidai istintaq və təhqiqatı;
- Vergi cinayətlərinin araşdırılması sahəsi üzrə əməliyyat-axtarış fəaliyyəti;
- İqtisadi sahədə mühüm işlər;
- Hüquqi təminat işlərinin təşkili.

2017-ci ilin 6 ayı ərzində e-kitabxanaya daxilolma statistikası barədə də məlumat verən N.Mehdiyev qeyd etmişdir ki, 2016-cı ilin ilk 6 ayı ərzində 9271 daxilolma qeydə alındığı halda, 2017-ci ilin müvafiq dövründə bu göstərici 11.464 təşkil etmişdir.

Sonra Şuranın sədr müavini, Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Əli Həsənov təlim sahəsində müasir beynəlxalq təcrübə nümunələri və onların Vergilər Nazirliyi çərçivəsində aparılan tədris prosesində tətbiqi imkanları barədə danışmış, IOTA-nın Portuqaliyada keçirilən Vergi üzrə Peşəkar Təlim və İnkişaf Forumu əsasında öyrənilmiş təcrübəni Şura üzvlərinin diqqətinə çatdırmışdır.

> Şura tərəfindən nazirliyin tədris və təlim prosesinin davamlı inkişafının istiqamətləri müəyyən edilir və müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı proqram təminatının təkmilləşdirilməsi üçün müvafiq strukturlar qarşısında təkliflər irəli sürülür

**Aytən NƏBİYEVA**

# Nəzarət tədbirlərinin nəticələri açıqlanıb

Azərbaycan Respublikası Hesablama Palatası bu ilin 6 ayı ərzində həyata keçirdiyi nəzarət tədbirlərinin nəticələrini açıqlayıb. Palatanın 2017-ci il İş planına əsasən, cari ilin 6 ayı ərzində 31 nəzarət tədbirinin başlanılması və 14 tədbirin nəticələri ilə bağlı kollegiya qərarları qəbul edilib. Nəticələrinə baxılmış nəzarət tədbirlərinin 13-ü audit, 1-i isə analitik təhlil işi olub.

Nəticələri ilə bağlı qərar qəbul olunmuş nəzarət tədbirləri dövlət büdcəsindən ayrılmış xərclərlə yanaşı, büdcədənkənar dövlət fondunun xərclərini və fəaliyyətdən əldə edilmiş vəsaitlər üzrə xərcləri əhatə edib. İki nəzarət tədbiri ilə dövlət büdcəsindən ayrılmış xərclər və Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun vəsaitləri, 4 tədbir ilə isə eyni zamanda fəaliyyətdən əldə edilmiş gəlirlər hesabına maliyyələşdirilmiş xərclər audit olunub.

Nəticələri ilə bağlı qərar qəbul edilmiş nəzarət tədbirləri ilə ümumilikdə 605,5 milyon manat vəsait əhatə olunub ki, bunun 402,6 milyon manatı və ya 66,5%-i dövlət büdcəsinin xərcləri, 88,3 milyon manatı və ya 14,6%-i büdcədənkənar dövlət fondlarının vəsaitləri, 114,6 milyon manatı və ya 18,9%-i isə fəaliyyətdən əldə edilmiş vəsaitlər üzrədir. Nəzarət tədbirləri əhatə edilən dövlət büdcəsi vəsaitinin 0,4%-i 2014-cü ildə, 48,1%-i 2015-ci ildə və 51,5%-i 2016-cı ildə icra edilmiş xərclər üzrə olub.

Əvvəlki illərdən fərqli olaraq, 2017-ci ilin birinci yarısında nəzarət fəaliyyəti ilə əhatə olunmuş vəsaitin dövlət büdcəsinin funksional bölmələri üzrə strukturu daha çox vəsaitin «İqtisadi fəaliyyət» bölməsi üzrə (24,8%) əhatə olunduğunu göstərir. Hesabat dövründə əhatə edilmiş vəsaitin 85,1%-i dövlət büdcəsinin mərkəzləşdirilmiş, 14,9%-i isə büdcənin yerli xərcləri üzrə olub. Nəzarət tədbirlərinin əhatə etdiyi dövlət büdcəsi vəsaitlərinin 36,2%-i mərkəzi icra hakimiyyəti orqanları və onların tabeli qurumları, 16,0%-i ali təhsil və elm müəssisələri, 47,8%-i isə digər dövlət qurumları tərəfindən icra edilib. Hesabat dövründə nəticələri ilə bağlı qərar qəbul edilmiş tədbirlər üzrə müvafiq zəruri addımların atılması məqsədilə 24 quruma kollegiya qərarının surəti, 5 quruma isə təqdimat göndərilib.

Hesablama Palatası tərəfindən əvvəlki illərdə başa çatdırılmış auditlərin və 2017-ci ilin altı ayı ərzində nəticələri ilə bağlı qərar qəbul edilmiş tədbirlərin nəticəsi olaraq, ümumilikdə 4762,8 min manat, 13,4 min ABŞ dolları məbləğində vəsaitin dövlət büdcəsinə, 122,6 min manat məbləğində vəsaitin isə büdcədənkənar dövlət fondunun büdcəsinə bərpası təmin edilib.

Nəzarət tədbirlərinin nəticəsində 39 vəzifəli şəxslə bağlı intizam-tənbeh tədbirinin tətbiq edildiyi barədə məlumatlar Hesablama Palatasına daxil olub.

# İnnovasiyaların İxracı Konsorsiumu yaradılıb

İnnovasiyalar sahəsində ixtisaslaşmış 10 şirkət («Sinam», «Ultra», «Best Solution», «Neuron», «Idrak», «Cybernet», «Bestcomp, Group», «Goldenpay», «R.I.S.K Company», İnnovasiyalar Mərkəzi) arasında «Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu»nun yaradılması ilə bağlı əməkdaşlıq memorandumu imzalanıb.

İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun icraçı direktoru Elçin Zeynalov təqdimat mərasimində bildirib ki, son illər Azərbaycanda informasiya texnologiyaları və rəqəmsal iqtisadiyyatın formalaşması üçün mühüm addımlar atılır. Yeni yaradılan konsorsiumun məqsədi ölkədə innovasiyalar sahəsində fəaliyyətin əlaqələndirilməsi, biznes mühitinin əlverişliliyinin, investisiyanın cəlb edilməsi və sahibkarlıq fəaliyyətinə dəstəyin artırılmasıdır. Qurum Azərbaycanın innovasiyalar sahəsində ixtisaslaşmış şirkətlərinin mənafelərini qoruyacaq və onları beynəlxalq bazarda təmsil edəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov bildirib ki, hazırkı inkişaf dövründə ölkəmizin əsas hədəfləri çoxşaxəli, innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi və beynəlxalq ixrac və rəqabət imkanlarının genişləndirilməsindən ibarətdir. Son illər dövlət idarəetməsi sahəsində genişmiqyaslı islahatların nəticəsi olaraq, beynəlxalq səviyyədə nümunəvi modellər tətbiq edilib və «ASAN xidmət» bunun ən yaxşı nümunəsidir. «ASAN xidmət»in məqsədlərindən biri məhz innovativ yeniliklərin dövlət xidmətlərinə tətbiq edilməsidir. Bu istiqamətdə dövlət xidmətlərinin elektronlaşdırılması, «ASAN ödəniş» sistemi, «ASAN Viza» və digər xidmət çeşidləri innovasiyaların tətbiqinin genişləndiyini göstərir. Qeyd olunub ki, yeni yaradılan konsorsium ölkəmizin beynəlxalq bazarda rolunun artırılmasında da əlverişli rol oynayacaq, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşması, intellektual, innovativ və rəqabətqabiliyyətli potensialın formalaşdırılması, beynəlxalq ixrac imkanlarının gücləndirilməsi, dünyada intellektual brend kimi tanınan «ASAN xidmət» təcrübəsinin və respublikamızın intellektual məhsullarının beynəlxalq bazara inteqrasiyasına töhfə verəcək.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı isə vurğulayıb ki, innovativ iqtisadiyyat quruculuğu əsas hədəflərdəndir. Qeyri-neft sektorunun və sənayenin inkişafını nəzərdə tutan proqramlar və bu istiqamətdə həyata keçirilən mühüm tədbirlər innovasiyalara və qabaqcıl texnologiyalara əsaslanan müəssisələrin yaradılmasına gətirib çıxarır. Sənaye texnologiyaları parklarının və məhəllələrinin, biznes inkubatorlarının, innovasiya mərkəzlərinin, aqrar parklarının, xüsusi iqtisadi zonaların və digər modellərin tətbiqi Azərbaycanda innovasiya yönümlü istehsalın genişlənməsinə imkan yaradır. Dövlət rəqabət qabiliyyətli innovativ məhsulların ixracının səmərəliliyini artırmaq üçün əlverişli investisiya və ixrac rejimini təmin edib. Bu sahədə səmərəli fəaliyyət göstərən «Azexport» portalı və «Azərbaycan Rəqəmsal Ticarət Qovşağı» «Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu»na daxil olan şirkətlərin məhsullarının ixracına da öz dəstəyini göstərəcəklər.

«BestComp Group» şirkətinin və «Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu»nun Müşahidə Şurasının sədri Rauf Həsənov qeyd edib ki, respublikamızda istehsal olunan intellektual məhsullar digər ölkələrin məhsullarından heç də geri qalmır, innovasiyaların təşviqi yolu ilə bu prosesi daha da sürətləndirmək mümkündür. Konsorsiumun yaradılması Azərbaycan şirkətlərinin dünya bazarına çıxışını asanlaşdıracaq, rəqabətədavamlı məhsulların istehsalına əlavə imkanlar yaradacaq.

**ELBRUS**

# Yeni qanun layihəsinin vergi daxilolmalarında rolu

Dünya Bankı siqaretə vergi yükünün artırılmasının, yaxud tütün məhsullarına xüsusi verginin tətbiqi ilə bağlı təkliflə çıxış edib. Bakıda keçirilən tütün məhsullarına vergi tətbiqinə dair seminarda Dünya Bankının koordinatoru Patrisio Markez bildirib ki, bu, büdcə daxilolmalarında mühüm artıma səbəb ola bilər. Qeyd olunan sahədə bir sıra ölkələrin təcrübəsini xatırladan mütəxəssis vurğulayıb ki, vergi tətbiqi nəticəsində tütün məhsullarından Filippin büdcəsinə il ərzində 4 milyard dollar, ABŞ-ın federal büdcəsinə isə 15 milyard dollar vəsait daxil olur.

P.Markezin fikrincə, vergi tətbiqi siqaret istehsalı ilə məşğul olan şirkətlərin marağına uyğun olmadığından, onlar müxtəlif təbliğat vasitələri ilə bu sahədə qaçaqmalçılığın artacağının əsaslandırmağa çalışırlar: «Amma onların bu təbliğatı əsaslı deyil və vergi-gömrük administrasiyalarının güclü nəzarəti sayəsində qaçaqmalçılıq hallarının qarşısını almaq mümkündür. Bu gün istehsal olunan siqaret məhsulları ən müasir texnologiyalarla hazırlanır ki, bu da istehsalın ucuz başa gəlməsinə imkan verir. Eyni zamanda, müasir texnologiyalar vasitəsilə siqaretin istehsalı, idxalı və satışı sahəsində nəzarəti təmin etmək mümkündür».

P.Markez Azərbaycanda tütün bazarının tənzimlənməsi ilə bağlı bəzi tədbirlərin görülməsinin vacibliyinə də toxunub. Qeyd edib ki, bu sahəyə nəzarətlə bağlı Vergilər Nazirliyi tərəfindən hökumətə təqdim olunmuş yeni qanun layihəsi mühüm əhəmiyyət kəsb edir. Qanunun qəbul edilməsi tütün mallarının idxalında yeniliklərə səbəb olacaq: ölkəyə gətirilən siqaretlərə elektron möhürlər vurulacaq ki, bu da məhsulun saxta olub-olmadığını müəyyənləşdirməkdə mühüm rol oynayacaq.

# Səmərəli vergi sistemi əlverişli biznes mühitinin əsasıdır




Bu gün Azərbaycanda sahibkarlıq fəaliyyətinə başlamaq, biznes qurmaq üçün heç bir məhdudiyyət yoxdur. Əksinə, hər il biznesə başlama prosedurları sadələşdirilir, iş adamlarına, vergi ödəyicilərinə yeni-yeni şirkətlər qurmaq üçün imkanlar yaradılır. Biznesə başlama ilə bağlı prosedurlar 15-dən 2-yə, sərf olunan vaxt isə 30 gündən 2 günə endirilib. Ölkəmizdə fəaliyyət göstərən fərdi sahibkarlar 2011-ci, yerli müəssisələr isə 2012-ci ildən elektron qaydada qeydiyyata alınırlar. Artıq vətəndaş evindən çıxmadan dövlət qeydiyyatından keçib fəaliyyətə başlaya bilir. Sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər yaşadıqları yer üzrə vergi orqanlarına Vergilər Nazirliyinin internet səhifəsinin «Bir pəncərə» bölməsinin «Lazımı sənədlər»in «Ərizə və arayış formaları» hissəsində yerləşdirilən «Fiziki şəxsin vergi uçotu haqqında ərizə» verməklə vergi ödəyicisi kimi uçota alınırlar. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini fiziki şəxs kimi həyata keçirmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər isə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilən vəsiqə əsasında vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınırlar. Vergi orqanı fiziki şəxsin vergi ödəyicisi kimi uçotunu sənədlər daxil olduğu gündən sonrakı 2 gün müddətində ödənişsiz həyata keçirir və vergi ödəyicisinə müvafiq şəhadətnamə verir.

Bundan əlavə, vətəndaşlar vergi orqanlarında elektron formada uçota alınmaq üçün Vergilər Nazirliyinin internet səhifəsinin «E-xidmətlər» bölməsindən də istifadə edərək dövlət qeydiyyatına alına bilirlər. Uçota alınmaq üçün təqdim edilən ərizəyə fəaliyyətin yerinə yetirilləcəyi ünvanı təsdiq edən sənədin (mülkiyyət hüququnu təsdiq edən sənədin, icarə müqaviləsinin və qanunvericiliklə nəzərdə tutulmuş digər sənədin) surəti əlavə edilir. Onu da xatırladaq ki, uçota alınma, yenidən uçota alınma, uçotdan çıxarılma ödənişsiz həyata keçirilir.

Ölkə Prezidentinin təşəbbüsü ilə «Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında» Qanunun Milli Məclis tərəfindən qəbul edilməsi sahibkarların fəaliyyətinə mane olan subyektiv amillərin aradan qaldırılmasına şərait yaratmışdır. Qanunda vergi yoxlamalarının dayandırılması və ya ləğv olunması nəzərdə tutulmasa da, Vergilər Nazirliyi yoxlamaların azaldılması ilə bağlı qərar qəbul edib və vergilər nazirinin müvafiq əmri ilə illik dövriyyəsi 120 min manatdan aşağı olan sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və bir çox vergi nəzarəti tədbirlərinin keçirilməsi müvəqqəti olaraq dayandırılıb.

Artıq kiçik və orta bizneslə məşğul olan vergi ödəyicilərinə münasibətdə vergi orqanları nəzarətdən çox əməkdaşlığa üstünlük verirlər. Vergi Məcəlləsində konkret peşə adları qeyd olunan kiçik vergi ödəyicilərinin də işi xeyli yüngülləşdirilib. Onlar, ümumiyyətlə, vergi bəyannaməsi təqdim etmədən, kiçik və sabit məbləğdə vergi ödəyərək sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz almaqla öhdəliklərini yerinə yetirmiş olurlar. Bu dəyişikliklər fərdi qaydada fəaliyyət göstərən aşağı gəlirli fiziki şəxslərin vergi və inzibati yükünün azaldılmasına xidmət etməklə yanaşı, kiçik sahibkarlıqla məşğul olmaq istəyənlərin də sayının artmasına təkan verir.

«Azərbaycan Respublikasının milli iqtisadiyyatın perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə əlverişli biznes mühitinin inkişaf etdirilməsi və səmərəli vergi sisteminin təşviqi başlıca məqsəd kimi müəyyənləşib. Yeni strateji siyasət şəffaflığı artırmaq, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı inamı gücləndirmək, eləcə də davamlı iqtisadi inkişafın təşviqində vergi potensialını müəyyən etmək üçün vergi sistemi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatların davam etdirilməsini nəzərdə tutur. Bu hədəflərə doğru irəliləmək məqsədilə digər ölkələrdə şirkətlərin vergi yükü və bütün əməliyyatlar üçün dəyər zənciri boyunca vergilər nəzərə alınaraq, ədalətli vergi səviyyəsi qiymətləndiriləcək. Sahibkarlıq subyektlərinə lazım olan maliyyə öhdəliyinin proqnozlaşdırılması üçün ölkənin vergi öhdəliklərinin aydın müəyyənləşdirilməsi və proqnozlaşdırılması sahəsində mümkün islahatlar təhlil ediləcək. İslahatlar çərçivəsində sahibkarlıq subyektlərinin rəsmi qeydiyyatını təşviq etmək və vergi bazasını genişləndirmək məqsədilə vergi əməl etməsi xərclərinin azaldılması təşəbbüsləri nəzərdən keçiriləcək.

> Yeni strateji siyasət şəffaflığı artırmaq, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı inamı gücləndirmək, eləcə də davamlı iqtisadi inkişafın təşviqində vergi potensialını müəyyən etmək üçün vergi sistemi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatların davam etdirilməsini nəzərdə tutur

**Rəşad SADIQOV**

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Elektron qaydada ödənilən vəsaitdən ƏDV-nin tutulması

***Xaricdə təhsil alan tələbənin yataqxana xərcləri ilə bağlı elektron qaydada ödənilən vəsaitdən bank tərəfindən ƏDV tutulmalıdırmı?***

«Elektron ticarət haqqında» Azərbaycan Respublikasının 10 may 2005-ci il tarixli 908-IIQ nömrəli Qanununun 1.0.1-ci maddəsinə əsasən, informasiya sistemlərindən istifadə edilməklə malların alğı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi (o cümlədən internet vasitəsilə elektron kitabların, musiqinin, audio-video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi, reklamların yerləşdirilməsi, digər analoji iş və xidmətlər) üzrə həyata keçirilən fəaliyyət elektron ticarət hesab olunur.

Vergi Məcəlləsinin 169.1-ci maddəsinə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində həmin Məcəllənin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə (o cümlədən elektron ticarət qaydasında Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, işlərin görülməsi və xidmətlərin göstərilməsi), XI fəslin məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi bu maddəyə uyğun olaraq vergiyə cəlb olunur.

**Qeyd olunanlara əsasən:**

Azərbaycan Respublikasının hüdudlarından kənarda yerləşən tələbə yataqxanasının xərclərinin elektron şəkildə ödənilməsi elektron ticarət qaydasında həyata keçirilən iş və xidmətlər hesab edilmir və həmin ödənişlərdən banklar tərəfindən ƏDV tutulmur.




## İxracın genişləndirilməsi istiqamətində fəal iş aparılır

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar, iqtisadiyyatın diversifikasiyası, özəl sektorun gücləndirilməsi, rəqabətədavamlı qeyri-neft məhsullarının istehsalı, ixracatçılara yaradılmış əlverişli şərait, ixracın genişləndirilməsi, xarici ölkələrə təşkil edilən ixrac missiyaları, «Made in Azerbaijan» brendinin və xarici investisiyaların təşviqi istiqamətində işlər intensiv xarakter alıb. Görülən tədbirlər nəticəsində 2017-ci ilin ilk 5 ayında qeyri-neft ixracı 22 faiz artıb. Bu dövr ərzində «Made in Azerbaijan» brendinin təşviqi ilə bağlı Çinə, Birləşmiş Ərəb Əmirliklərinə, Almaniyaya, Əfqanıstana, Pakistana, Qətərə, Qazaxıstana 8 ixrac missiyası həyata keçirilib, yerli məhsullarımız vahid ölkə stendləri ilə beynəlxalq sərgilərdə nümayiş olunub. Bu ilin sonuna kimi Azərbaycan ixracatçılarının daha bir neçə beynəlxalq sərgidə iştirakı nəzərdə tutulur.

İxrac bazarlarında ölkəmizin və yerli ixracatçıların iqtisadi-ticarət maraqlarının daha dolğun qorunması və təmsil edilməsi məqsədilə səfirlik və konsulluqlarda ticarət nümayəndələri təyin edilib. Artıq Azərbaycanın 3 ölkədə - Rusiya, Çin və Birləşmiş Ərəb Əmirliklərində ticarət nümayəndələri təyin olunub. Bu ilin mayında Belarusda Azərbaycan Ticarət Evi yaradılıb. İxracın genişləndirilməsi məqsədilə Qazaxıstanın Aktau şəhərində Azərbaycanın logistika mərkəzi fəaliyyət göstərir. Bunlarla yanaşı, qeyri-neft məhsullarının ixracının artırılması məqsədilə ixrac olunan yerli məhsullar üçün ixrac təşviqi ödənilir. Bu ilin ötən 6 ayı ərzində sahibkarlara 1,3 milyon manat həcmində ixrac təşviqi ödənilib.

AZPROMO-nun rəhbəri Rüfət Məmmədov Azərbaycanda ixracatçılara yaradılmış əlverişli dəstək mexanizmlərindən bəhs edərkən bildirib ki, İxracatçılar Klubunun keçirdiyi görüşlər və seminarlar qeyri-neft ixracının genişləndirilməsi istiqamətində əhəmiyyətli rol oynayır. O, ixracatçılarımızı Avropa İttifaqının təşkil etdiyi «Şərq Tərəfdaşlığı: Ticarətə hazır ol» layihəsində fəal iştirak etməyə dəvət edib.

**RƏŞAD**

# İxrac təşviqi prosedurları sadələşdirilir

*Milli istehsalı və ixracı stimullaşdırmaq, ixracatçıları yeni bazarlara həvəsləndirmək üçün əlavə tədbirlər görüləcək*

2017-ci ilin birinci yarısında qeyri-neft məhsullarının ixracı ilə məşğul olan sahibkarlara dövlət tərəfindən 1,3 milyon manat həcmində ixrac təşviqi vəsaiti ödənilib. İqtisadiyyat nazirinin müavini Sahil Babayev bildirib ki, hazırda ixrac təşviqi şamil olunan malların siyahısına bal, xurma, nar, qovrulmuş fındıq kimi kənd təsərrüfatı məhsulları, qurudulmuş meyvələr, konservləşdirilmiş meyvə-tərəvəz, mürəbbə və cemlər, turşular, spirtli içkilər və şərab, mineral sular və şirələr, unlu qənnadı məmulatları, habelə dəri məmulatları, ipək parçalar və xalçalar kimi digər məhsullar daxildir. Həmin məhsulların növündən asılı olaraq, sahibkarlara ixrac etdikləri qeyri-neft məhsullarının gömrük dəyərinin 3 faizdən 6 faizədək büdcə vəsaitləri hesabına ixrac təşviqi ödənilir.

Bu ildən etibarən sahibkarlar tərəfindən ixrac təşviqi mexanizminə böyük maraq göstərilməkdədir və onların ixracqabiliyyətli yeni məhsullar istehsal etmələri nəzərə alınaraq, yaxın günlərdə ixrac potensialı yüksək olan digər məhsullara da təşviq sənədinin verilməsi planlaşdırılır. Ümumilikdə, ilin sonuna kimi qeyri-neft məhsulları ixracatçılarına 10 milyon manata yaxın ixrac təşviqinin ödənilməsi nəzərdə tutulub.

2017-ci il ərzində qeyri-neft ixracını həvəsləndirən əlavə tədbirlərin görülməsi istiqamətində işlər aparıldığını deyən Sahib Məmmədov bildirib ki, müvafiq iqtisadi qurumlarla birgə sahibkarlara təşviqlə bağlı dəstəyin göstərilməsi üçün tədbirlər planı hazırlanacaq. Dövlət başçısının imzaladığı «Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında» müvafiq fərmana uyğun olaraq, təşviq sənədinin verilməsi müddətinin azaldılması və prosedurların daha da asanlaşdırılması nəzərdə tutulur. Məqsəd ixrac təşviqi siyasətini gücləndirməklə milli istehsalı və ixracı stimullaşdırmaq, milli ixracatçıları yeni bazarlara çıxmağa həvəsləndirməkdir.

Təşviq sənədinin verilməsi prosesinin sadələşdirilməsi də nəzərdə tutulan əsas məsələlərdəndir. Hazırkı prosedurlara əsasən, sahibkarların təqdim etdikləri biznes-plana qeydiyyata alındığı tarixdən ən geci 7 iş günü müddətində baxılır və tələb olunan tələblərə uyğun olduqda təsdiqedici sənəd sahibkara təqdim olunur. İqtisadiyyat Nazirliyi sənəd barədə məlumatları 3 iş günü müddətində Vergilər Nazirliyinə və Dövlət Gömrük Komitəsinə təqdim edir. Sahibkarın təqdim etdiyi ərizədə və ona əlavə olunmuş sənədlərdə göstərilən məlumatlar tələblərə cavab vermədikdə, habelə onlarda aradan qaldırılması mümkün olmayan çatışmazlıq aşkar edildikdə təsdiqedici sənədin verilməsindən imtina olunur. Bununla yanaşı, sahibkara yenidən bu sənədi əldə etmək üçün şansı da verilib. Aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldığı halda, sahibkarın yenidən ərizə ilə müraciətinə müsbət baxılır. Tədbirlər planında bütün bu prosedurların təkmilləşdirilməsi, ilin sonuna kimi vaxt, müddət və müraciətə baxılma üzrə qaydaların asanlaşdırılması nəzərdə tutulur.

**Sahibkarın təqdim etdiyi ərizədə və ona əlavə olunmuş sənədlərdə göstərilən məlumatlar tələblərə cavab vermədikdə, habelə onlarda aradan qaldırılması mümkün olmayan çatışmazlıq aşkar edildikdə təsdiqedici sənədin verilməsindən imtina olunur**

Qarşıdakı illərdə investisiya təşviqi ilə bağlı yürüdülən siyasətə əsasən, sahibkarlara verilən təşviq vəsaitinin həcminin artırılması da istisna olunmur. Hazırda təşviq məbləği investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi və onun həyata keçiriləcəyi inzibati ərazi vahidlərdən asılı olaraq dəyişir. Belə ki, investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri 5 region üzrə müəyyənləşib. Birinci regiona Bakı şəhəri, ikinci regiona Bakıətrafı qəsəbələr və Abşeron rayonu, üçüncü regiona Sumqayıt və Gəncə şəhərləri, dördüncü regiona 1, 2, 3 və 5-ci regionlara aid edilməyən şəhər və rayonlar, beşinci regiona Naxçıvan Muxtar Respublikası, Füzuli, Xocavənd, Ağdam, Tərtər, Ağcabədi, Naftalan, Goranboy, Göygöl, Gədəbəy, Daşkəsən, Qazax, Tovuz, Ağstafa, Lerik, Yardımlı, Balakən, Qusar rayonları daxil edilib. Birinci regiondan beşinci regiona doğru iqtisadi fəaliyyət sahələri üzrə tələb olunan investisiya layihəsinin həcmi ilə bağlı məbləğlər azalır. Məsələn, Bakıda investisiya təşviqi sənədinin alınması üçün minimum 5 milyon, Bakıətrafı qəsəbələr və Abşeron rayonunda minimum 3 milyon manat investisiyanın qoyulması tələb edilirsə, 5-ci region üzrə bu tələb 500 min manat həcmindədir.

Fəaliyyət göstərdikləri regionlardan asılı olmayaraq, investisiya təşviqi sənədi almış bütün sahibkarların əldə etdikləri mənfəətin 50%-i 7 il müddətinə gəlir və ya mənfəət vergisindən azad edilib. Həmçinin, sənədi almış hüquqi şəxslər və fərdi sahibkar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı bu sənədi aldıqları andan 7 il müddətinə ƏDV-dən azad olunub. Bundan başqa, hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq əmlaka görə 7 il müddətinə əmlak vergisi, mülkiyyətlərində olan torpaq sahələrinə görə isə 7 il müddətinə torpaq vergisi ödəməkdən azad ediliblər. Eyni zamanda, onlar texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə 7 il müddətinə gömrük rüsumlarından azaddırlar.

Bu sahəyə nəzarətin daha da artırılması, sənədin verilməsi prosesində operativliyin, çevikliyin, əhatəliliyin və şəffaflığın gücləndirilməsi də əsas prinsiplər kimi müəyyən edilib. Bununla yanaşı, ölkəmizin investisiya imicinin formalaşdırılması, yerli və xarici investorlara müxtəlif keyfiyyətli xidmətlər göstərilməsi, investorların cəlb edilməsi məqsədilə onlarla danışıqların aparılması, investisiyalar və ixrac imkanları üzrə məlumat bazasının yaradılması əsas hədəflərdəndir.

**E.CƏFƏRLİ**

# İqtisadi artım vəsait qoyuluşu tələb edir

Hesablamalara görə, bu ilin yanvar-may ayları ərzində ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 5671,7 milyon manat vəsait yönəldilib. İqtisadiyyat Nazirliyinin 2017-ci il və sonrakı 3 il üçün hazırladığı ölkənin iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinə əsasən, bu il ərzində əsas kapitala yönəldiləcək investisiyaların həcmi 15,3 milyard manat nəzərdə tutulub. Cari ildə iqtisadiyyata yönəldilən investisiyaların 39,6%-ni daxili, 60,4%-ni isə xarici mənbələr təşkil etməlidir. Ümumi investisiyanın 5,6 milyard manatının qeyri-neft, 9,7 milyard manatının isə neft sektoruna yatırılacağı gözlənilir.

Dövlət Statistika Komitəsinin aylıq hesabatına əsasən, bu ilin ilk 5 ayı ərzində əsas kapitala yönəldilən 5 milyard 671,7 milyon manat vəsaitin 3 milyard 663,5 milyon manatı neft, 2 milyard 8,2 milyonu isə qeyri-neft sektoruna, ümumi sərmayənin 73,1%-i bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub. Burada diqqəti çəkən məqam budur ki, ölkədə hələ də investisiyaların böyük qismi neft sektorunun payına düşür. Qoyulan vəsaitin 82,9 %-i istehsal obyektlərinin, 11,9 %-i xidmət, 5,2 %-i isə ümumi sahəsi 630 min kvadratmetrə yaxın olan yaşayış evlərinin payına düşüb.

İqtisadçı Pərviz Heydərovun açıqlamasına görə, bu gün investisiya strategiyasında əsas hədəf iqtisadiyyatda, xüsusən də qeyri-neft sektorunda xarici investisiyaların artması və əhatə dairəsinin genişlənməsidir: «Azərbaycanda investisiyaların qeyri-neft sektoruna yönəldilməsi üçün gözəl zəmin var. Son vaxtlar qeyri-neft sektoruna da daxili və xarici sərmayə qoyulur. Bununla belə, bu sektora daha çox xarici sərmayə cəlb etməyə çalışmalıyıq. Hazırda müxtəlif xarici iqtisadi və maliyyə qurumları Azərbaycanda makroiqtisadi göstəricilərin artımı ilə bağlı proqnozlar irəli sürürlər. Əlbəttə, bunlar təxmini xarakter daşıyır. Fakt budur ki, ümumi daxili məhsul (ÜDM) istehsalının səviyyəsi yüksəldilməlidir. 2017-ci ilin yanvar-aprel ayları ərzində ölkəmizdə 20 milyard 139,8 milyon manatlıq ÜDM istehsal edilmişdir ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,2% azdır. Azalmaya təsir edən əsas amilin sənayenin neft hasilatı və emalı sahələrində istehsalın aşağı düşməsidir. Qeyri-neft bölməsində istehsal olunan əlavə dəyər isə əvvəlki ilin eyni dövrünə nisbətən 1,9% artmışdır.

2017-ci ilin ilk beş ayının göstəricilərinə əsasən, ölkədə 25 milyard 338,7 milyon manat dəyərində məhsul istehsal edilmişdir. Bu onu göstərir ki, iqtisadiyyatda 2 ildir ardıcıl davam edən geriləmə prosesi artıq dayanıb və sabitləşmə müşahidə edilir. Bununla belə, makroiqtisadi göstəricilərdə möhkəm dayanıqlıq əldə etmək üçün hələ xeyli yol getmək lazımdır. Bunun üçün, ilk növbədə, ölkənin neftdənkənar ixrac potensialından maksimum istifadə etməklə qeyri-neft sektoruna əlavə investisiya qoyuluşlarını təmin etməliyik».

Ekspertin fikrincə, istehsalda dayanıqlıq əldə etmək və xarici bazarların təsirlərindən yaxa qurtarmaq lazımdır. Bunun üçün manatın dəyəri möhkəm təmələ söykənməlidir: «İnvestisiya «su axınına» bənzəyən amildir, yəni hansı istiqamətdə hərəkət etmək və özünə yer tapmaq imkanı əldə edərsə, dərhal oraya doğru hərəkət edəcək. Bu mənada, əsas kapitala vəsait qoyuluşunun əsas etibarilə istehsala, xüsusən də qeyri-neft sektoruna aid istehsal obyektlərinə axmasına şərait yaradılmalıdır. Bu, ümumi investisiya həcminin azalması prosesinin də neqativ təsirlərini aradan qaldıracaq».

**FƏXRİYYƏ**

# Sahibkarlığa dəstək tədbirləri davam etdirilir

Azərbaycanda sahibkarlığın inkişafına dövlət dəstəyini həyata keçirən Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) güzəştli kreditləri hesabına ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsi davam edir. Xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinin inkişafında mühüm təsirə malik olan güzəştli kreditlərdən ətlik və südlük istiqamətli cins iri buynuzlu heyvandarlıq komplekslərinin, logistika və yaşıl market mərkəzlərinin, aqroparkların, müasir tələblərə cavab verən meyvə-tərəvəz məhsullarının emalı müəssisələrinin, iri fermer təsərrüfatlarının, qarışıq yem istehsalı müəssisələrinin, müasir istixana komplekslərinin, intensiv bağçılıq və ya tingçilik təsərrüfatlarının, müasir çörək istehsalı müəssisələrinin, digər sənaye müəssisələrinin yaradılması və kiçik sahibkarlığın inkişafı məqsədləri üçün istifadə edilir.

Bu ilin birinci yarımilliyi ərzində SKMF tərəfindən 690 sahibkara 63,3 milyon manat həcmində güzəştli kredit verilib, həmin vəsaitin 76%-i regionların, 24%-i isə Bakı qəsəbələrinin payına düşür. Bu investisiya layihələrinin reallaşdırılması 2300-dən çox yeni iş yerinin yaradılmasına imkan verir.

Fondun vəsaitlərinin istifadə qaydalarına əsasən, müvəkkil kredit təşkilatları ildə iki dəfədən az olmayaraq sahibkarlara təqdim olunan vəsaitlərin hər bir sahibkarlıq subyekti tərəfindən investisiya layihəsi üzrə istifadə edilməsinin monitorinqini aparır və bu barədə SKMF-yə hesabat verirlər. Monitorinq zamanı güzəştli kredit vəsaitinin təyinatı üzrə istifadə edilməməsi halları aşkar edildikdə, müvəkkil kredit təşkilatı güzəştli kreditin və hesablanmış faiz borcunun vaxtından əvvəl ödənilməsini sahibkarlıq subyektindən tələb edə bilər. Həmçinin, vəsaitlərin təyinatı üzrə istifadəsinə nəzarət etmək məqsədilə Fond maliyyələşdirdiyi sahibkarlıq subyektlərində müstəqil monitorinqlər apara bilər. Əgər monitorinq zamanı güzəştli kredit vəsaitinin təyinatı üzrə istifadə edilməməsi faktı aşkar edilərsə, həmin sahibkarlıq subyektinə verilmiş güzəştli kredit və faiz borcu bütövlükdə Fondun hesabına köçürülür.







**AYTƏN**

# Qeyri-neft ixracının müasir platforması - Rəqəmsal Ticarət Qovşağı...

## «ASAN imza» sertifikatlarının qarşılıqlı tanıdılması əcnəbi sahibkarların Azərbaycanda biznes fəaliyyətini təşviq edəcək

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Beynəlxalq Ticarət Mərkəzi arasında imzalanmış Anlaşma memorandumunda «Şərq tərəfdaşlığı: ticarətə hazır ol» layihəsi çərçivəsində ölkəmizdə kiçik və orta sahibkarların qlobal dəyər zəncirlərinə inteqrasiyası, onların istehsal etdikləri məhsulların rəqabət qabiliyyətinin artırılması, kiçik və orta sahibkarların Avropa İttifaqı idxalçıları ilə əlaqələrinin qurulması, istehsalçı və ixracatçı assosiasiyaların potensialının gücləndirilməsi və s. nəzərdə tutulur. Beynəlxalq Ticarət Mərkəzinin direktoru xanım Arança Qonzales bildirib ki, Azərbaycanda kiçik və orta sahibkarların istehsal etdikləri məhsulların rəqabət qabiliyyətinin artırılması və xarici bazarlara daha çox çıxarılması, eləcə də beynəlxalq elektron kommersiya platformalarına birbaşa çıxışın əldə edilməsi sahəsində uğurlu əməkdaşlıq üçün münbit şərait mövcuddur.

İqtisadiyyat nazirinin müavini Sahil Babayev bildirib ki, Azərbaycanın qarşısında duran müasir iqtisadi çağırışlardan biri ixracyönümlü iqtisadiyyata keçidin təmin edilməsi, Avropa və MDB, habelə Türkiyə, Gürcüstan və İran kimi yaxın region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağıtarifli mühitdə səmərəli gömrük prosedurlarının tətbiqi nəticəsində Azərbaycanın ticarət qovşağı kimi mövqeyinin gücləndirilməsidir. Bu məqsədlə ölkəmizin şaxələndirilmiş nəqliyyat-logistika imkanlarından və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə ixrac potensialının yüksəldilməsi, transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi, rəqəmsal ticarət qovşağı kimi Azərbaycanın aparıcı mövqeyinin gücləndirilməsi başlıca hədəflərdəndir. Bu tədbirlərin sistemli və kompleks şəkildə həyata keçirilməsini təmin etmək üçün dövlət başçısının müvafiq fərmanı ilə Rəqəmsal Ticarət Qovşağının yaradılması nəzərdə tutulub və bu istiqamətdə müvafiq tədbirlər görülməkdədir.

Rəqəmsal Ticarət Qovşağı ölkədə rəqabətədavamlı qeyri-neft məhsullarının istehsalına və ixracın genişləndirilməsinə, xarici ölkələrə təşkil edilən ixrac missiyalarının, «Made in Azerbaijan» brendinin təbliğinə mühüm töhfə verəcək.

### Elektron ticarətin əhatə dairəsi genişlənəcək

Rəqəmsal Ticarət Qovşağının yaradılmasının təmin edilməsi üçün bir sıra dövlət orqanları qarşısında tələblər müəyyənləşdirilib. Ümumi konsepsiya isə Azərbaycanda istehsal olunan malların elektron ticarət qaydasında təqdim edilməsi, ixracatçıların ixrac əməliyyatlarını həyata keçirmək üçün tələb olunan icazələri vahid elektron ərizə əsasında elektron qaydada əldə etmələri, ixrac gömrük bəyannaməsinin, habelə qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqinin ödənilməsi üçün müraciətlərin tamamilə elektronlaşdırılmasıdır.

İqtisadiyyat Nazirliyindən verilən xəbərə görə, ötən dövr ərzində Azərbaycanın beynəlxalq ticarət sisteminə inteqrasiyasının sürətləndirilməsi istiqamətində bir sıra işlər həyata keçirilib. Yerli malların ənənəvi və yeni bazarlara çıxarılması imkanlarını artırmaq və beynəlxalq bazarlara inteqrasiya prosesini sürətləndirmək məqsədilə Azərbaycan Respublikasında istehsal olunan mallar və onların istehsalçıları barədə məlumatları əks etdirən www.azexport.az internet portalı yaradılıb və onun real vaxt rejimində fəaliyyəti təmin olunub. «Azexport» portalının rəhbəri Zaur Qardaşovun sözlərinə görə, portalda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycanda vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verən «Azərbaycan Rəqəmsal Ticarət Qovşağı» bölməsinin yaradılması istiqamətində müvafiq işlər görülür. Elektron pul kisəsinin yaradılması, ixrac əməliyyatlarını həyata keçirmək üçün tələb olunan icazələrin vahid elektron ərizə əsasında elektron qaydada verilməsi, ixrac təşviqinin ödənilməsi və digər məsələlərin həlli üzrə tədbirlər davam etdirilir. Azərbaycanın BMT-nin «Beynəlxalq müqavilələrdə elektron kommunikasiyaların istifadəsinə dair Konvensiya»sına qoşulmasının icrası sahəsində də təxirəsalınmaz tədbirlər həyata keçirilir.

### Xarici investorların vergi və inzibati xərcləri azalacaq

Rəqəmsal Ticarət Qovşağının yaradılması ilə bağlı dövlət başçısının fərmanında Vergilər Nazirliyinə də müvafiq tapşırıqlar verilib. Fərmana əsasən, xarici ölkələrlə elektron imza, o cümlədən «ASAN imza» sertifikatlarının qarşılıqlı tanınmasının təmin edilməsi istiqamətində mühüm işlər görülməkdədir. Bu, elektron imza, o cümlədən «ASAN imza» vasitəsilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin formalarının sadələşdirilməsi və xarici ölkə ərazilərində də elektron qaydada təsdiq edilməsi imkanının yaradılmasından ibarətdir.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayevanın sözlərinə görə, qarşıya qoyulmuş məsələlərin icrası ilə bağlı hazırlanmış tədbirlər planına uyğun işlər davam etdirilir.

Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının müvafiq Qərarı ilə "Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin inzibatçılığı Qaydaları yeni redaksiyada təsdiq edilmiş, ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin icrasını tənzimləyən prosedurları sadələşdirilmiş və Kollegiya Qərarı ilə təsdiq edilmiş Qaydalar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə göndərilmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza, o cümlədən «ASAN imza» sertifikatının verilməsi nəzərdə tutulur. Xarici ölkələrlə elektron imza, o cümlədən «ASAN imza» sertifikatlarının qarşılıqlı tanınmasının təmin edilməsi istiqamətində intensiv işlər aparılır. Vergilər Nazirliyinin Elektron imza üzrə Sertifikat Xidmətləri Mərkəzi tərəfindən elektron imzası olan şəxslərin Azərbaycanda elektron qeydiyyatının, yəni biznesə başlamanın elektronlaşması imkanının yaradılması ilə bağlı qanun layihəsi hazırlanıb və hökumətə təqdim edilib. Layihəyə əsasən, gücləndirilmiş imzaların diplomatik nümayəndəliklər tərəfindən ölkədən kənarda verilməsi texniki cəhətdən təmin olunacaq. Bununla da qeyri-rezident öz ölkəsində həmin sistem vasitəsilə elektron qeydiyyatdan keçərək Azərbaycanda müəssisə yarada biləcək. E-sertifikatın alınması təchizatçıdan sıfır faiz dərəcəsi ilə ƏDV tutulmasına, podratçı və subpodratçı şirkətlər tərəfindən sertifikatın alınması prosesinin elektronlaşdırılması vergi ödəyicilərinin vaxt və inzibati xərclərinin əhəmiyyətli şəkildə azalmasına gətirib çıxaracaq. Beləliklə, bu amillər onların xərclərinin optimallaşdırılması və biznesin təşviqinə səbəb olacaq, xarici biznes tərəfdaşları arasında sənədlərin elektron formada tərtibi və imzalanmasına, digər dövlətlərlə elektron məlumat mübadiləsi, transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə, xarici investorlar üzrə vergi və inzibati xərclərinin azalmasına imkan verəcək.




**Vergilər Nazirliyinin Elektron imza üzrə Sertifikat Xidmətləri Mərkəzi tərəfindən elektron imzası olan şəxslərin Azərbaycanda elektron qeydiyyatının, yəni biznesə başlamanın elektronlaşması imkanının yaradılması ilə bağlı qanun layihəsi hazırlanıb və hökumətə təqdim edilib**

### «ASAN imza» beynəlxalq ticarətin təşviqinə yol açır

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə ISESCO arasında anlaşma memorandumunun imzalanması islam ölkələrində elektron imzaların qarşılıqlı tanınması baxımından xüsusi önəm daşıyır. Bu sənəd Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı kimi mövqeyinin gücləndirilməsinə, xarici ticarət əməliyyatlarının genişləndirilməsinə və tranzaksiyaların artmasına yardım edəcək. Qovşağın tanıdılması istiqamətində beynəlxalq səviyyədə təşviqat işləri də mühüm əhəmiyyət kəsb edir. Bir müddət əvvəl isə Polşanın Şetsin şəhərində «Elektron imza və etimad edilən xidmətlər üzrə XVII Avropa Forumu»nda Azərbaycanın milli brendi olan «ASAN imza» təqdim edilib. Elektron imza xidmətinin operatoru - «B.EST Solutions» şirkətinin rəhbəri Yana Krimpe mobil texnologiyaların Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı və transsərhəd elektron xidmətlər üçün təhlükəsizliyində açar rolu oynadığını diqqətə çatdırıb. Bildirib ki, «ASAN imza»nın beynəlxalq ticarətin mühüm platformalarından birinə çevrilən «azexport.az» portalına inteqrasiyası ixracın təşviqində və dünya elektron ticarət şirkətləri ilə sıx əlaqələrin yaradılmasında mühüm rol oynayır.

**Elbrus CƏFƏRLİ**

## ELAN

Hörmətli vergi ödəyicisi!

ASAN İmza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin iyul ayında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin iyul ayında bitəcəyindən, qüvvədə olan ASAN İmza sertifikatının müddətini uzatmaq və ya yenisini almaq üçün aşağıdakı ünvanlara müraciət edə bilərsiniz:

- Qüvvədə olan ASAN İmzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN İmza SİM kartını dəyişdirərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ASAN xidmət mərkəzlərinə;
- ASAN İmza SİM kartını dəyişdirdikdən sonra birbaşa vergi ödəyicilərinə xidmət mərkəzlərinə;
- ASAN İmza SİM kartını dəyişdirdikdən sonra birbaşa ASAN xidmət mərkəzlərinə.

ASAN İmza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin "195-1" Çağrı Mərkəzinə və ya www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## BİR CÜMLƏ - BİR XƏBƏR

İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresi çərçivəsində aparıcı neft-qaz şirkətləri sərgisində Azərbaycan bölməsi qurulub.

Heydər Əliyev Mərkəzi və Energetika Nazirliyinin təşkilatçılığı ilə Qazaxıstanın Astana şəhərində «EXPO 2017 - Gələcəyin enerjisi»beynəlxalq sərgidəki Azərbaycan pavilyonunda Milli Gün keçirilib.

Bu gün İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində «İxracın təşviqi proqramları və onların kiçik və orta sahibkarların inkişafına təsiri» mövzusunda seminara start verilir.

Aktivlərinin həcminə görə dünyanın ən böyük bankı olan Çin Sənaye və Kommersiya Bankı (Industrial and Commercial Bank of China - ICBC) Azərbaycanın bank sektoru ilə əməkdaşlıq etmək niyyətindədir.

Azərbaycan ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) arasında gələcək əməkdaşlığın perspektivləri müzakirə olunub.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanında 2017-ci ilin birinci yarısında qeyri-neft məhsulları üzrə yükaşırmada 43,5 faiz artım qeydə alınıb.

# «ASAN Viza» sistemi təkmilləşdirilir

Elektron viza Azərbaycana səyahət etmək və daxil olmaq üçün ilkin giriş icazəsidir. Elektron vizaların rəsmiləşdirilməsi proseduru Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən həyata keçirilir. Elektron vizalar yalnız siyahısı Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən təsdiqlənən 93 ölkənin vətəndaşlarına və həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə şamil edilir. E-vizaların alınmasına icazə verilən ölkələrin siyahısı «Elektron Viza» portalında da yerləşdirilib. Bu sənəd əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq hüququ vermir...

Elektron vizanın alınması ilə bağlı müraciət edən şəxslər daxil etdikləri ərizə-anket məlumatlarının və sərhədkeçmə sənədinin fotoşəkil olan səhifəsinin skan edilmiş surətinin doğruluğuna, o cümlədən həyata keçirdikləri ödənişlərin düzgünlüyünə görə şəxsən məsuliyyət daşıyırlar. Elektron viza almaq üçün müraciətlərin və ödənişlərin qəbulu barədə bildirişlər, habelə elektron viza verilməsi və ya verilməsindən imtina ilə bağlı məlumatlar müraciət edən şəxsin elektron ünvanına göndərildiyi üçün elektron ünvanlar barədə məlumatlar düzgün göstərilməlidir. Səhv və tam olmayan məlumatlar daxil edildikdə, habelə ödənişlər düzgün həyata keçirilmədikdə elektron vizanın alınması ilə bağlı müraciət qəbul edilmir.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti qalma müddəti vizada göstərilən müddətdən artıq ola bilməz. Bu müddət bitənədək həmin şəxslərin ölkədə müvəqqəti qalma müddəti uzadılmamışdırsa, müvəqqəti yaşamaq üçün icazə verilməmişdirsə, habelə müvəqqəti olma müddətinin uzadılması və ya müvəqqəti yaşama icazəsinin verilməsi üçün ərizə qəbul edilməmişdirsə, onlar Azərbaycan Respublikasının ərazisini tərk etməlidirlər. Elektron vizada göstərilən müddətdən artıq ölkə ərazisində qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.

Ölkə başçısının «ASAN Viza» sistemi haqqında Əsasnamə»də dəyişikliklər edilməsi barədə fərmanına müvafiq olaraq, bu sistemin inkişafı və təkmilləşdirilməsi ilə bağlı hazırlanmış dəyişikliklərin tətbiqinə başlanılıb. 2017-ci il iyulun 6-dan etibarən sərhədkeçmə sənədi ilə elektron vizada qeyd olunan məlumatlar arasında uyğunsuzluqlar aşkar edildikdə, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs məlumatlarda müvafiq düzəlişlər edərək vizanın təkrar alınması üçün evisa.gov.az internet səhifəsi vasitəsilə müraciət edə bilər. Elektron vizaların etibarlılıq müddəti, ölkədə qalma müddəti 30 gün olmaqla, 90 gün təşkil edir.

«ASAN Viza» sisteminin internet səhifəsinin təkmilləşdirilməsi ilə bağlı görülən tədbirlər çərçivəsində Azərbaycana gələn turist axını nəzərə alınaraq, səhifənin ərəb və fars dillərində olan versiyaları istifadəyə verilib. Bundan başqa, elektron viza alınması üçün ərizə məlumatları daxil edilməzdən əvvəl təkrar olunan səhvlərə dair təlimat və səyahət sənədinin nümunəsi istifadəçi ekranına çıxır. Müraciətçinin məlumatları internet səhifəsinə daxil edildikdən sonra «Təsdiq et» pəncərəsində həmin məlumatlarla yanaşı, ərizəyə əlavə olunmuş səyahət sənədinin surəti də istifadəçi ekranında göstərilir, yəni yeni elektron viza blankı tətbiq edilir.

Yaxın günlərdə əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ölkəmizə səfər etmək üçün elektron vizanın sürətləndirilmiş qaydada alınması ilə bağlı müraciətlərinə «ASAN Viza» sistemi vasitəsilə 3 saat ərzində baxılacaq.

**Elektron vizada göstərilən müddətdən artıq ölkə ərazisində qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar**

**AYTƏN**

# İlk milli hesabat BMT-yə təqdim olunub

Azərbaycan hökuməti tərəfindən Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ilə bağlı hazırlanmış ilk milli hesabat BMT-nin İqtisadi və Sosial Şurasına təqdim edilib. İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, DİM-dən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Şuranın əsas vəzifələri qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyalarının qəbul olunmuş beynəlxalq sənədlərlə uzlaşdırılmasının təmin edilməsidir. Ötən müddət ərzində Şuranın Katibliyi, işçi qrupları yaradılıb və mövcud siyasətə uyğun olaraq, ilk illik hesabat hazırlanıb.

Hesabatda ölkə iqtisadiyyatının müxtəlif sektorları üzrə makroiqtisadi göstəricilər, BMT ilə əməkdaşlıq çərçivəsində əldə olunan nailiyyətlər, inkişaf hədəfləri, həyata keçirilən sosial-iqtisadi islahatlar, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, eyni zamanda dayanıqlı inkişafın davamlılığının təmin edilməsi ilə bağlı görülən işlər əksini tapıb.

Qeyd olunduğuna görə, DİM çərçivəsində statistik göstəricilərin BMT-nin tələblərinə uyğunlaşdırılması, milli prioritetlərin və göstəricilərin müəyyən edilməsi, illik hesabatların hazırlanması nəzərdə tutulur. Ümumilikdə isə qurum Dayanıqlı İnkişaf Məqsədləri üzrə 2030-cu ilə qədər həyata keçirilən işlər barədə hesabatlar hazırlayacaq və BMT-yə təqdim ediləcək.

# Elektron İpoteka Sistemi fəaliyyətə başlayacaq

«Elektron İpoteka sistemi» (EİS) müvafiq beynəlxalq təcrübə nəzərə alınmaqla yaradılmışdır. Bu sistemin tətbiqinin məqsədi əhalinin ipoteka kreditləri ala bilmək imkanlarının sadələşdirilməsi, ipoteka kreditindən yararlanmaq istəyən şəxslər üçün bərabər şərait yaradılması, müraciətlərə baxılma zamanı şəffaflığın və operativliyin təmin edilməsidir. İnformasiya-kommunikasiya texnologiyalarının imkanlarından faydalanaraq tələb olunan sənədləri real vaxt rejimində əldə etməyə imkan verən sistem vaxta və xərclərə qənaət olunmasını, göstərilən xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılmasını təmin edəcək.



«Azərbaycan İpoteka Fondu» ASC-dən (AİF) bildirilib ki, «Elektron ipoteka» sisteminin «Elektron hökumət portalı»na inteqrasiya prosesi artıq başa çatmışdır. Avqust ayının 1-dən etibarən sistem «Elektron hökumət portalı»nın real vaxt rejimində əhalinin istifadəsinə veriləcəkdir. Bundan sonra Fondun vəsaiti hesabına verilən ipoteka kreditindən yararlanmaq istəyən hər bir şəxs birbaşa internet vasitəsilə onlayn rejimdə portala daxil olaraq (www.e-gov.az) müvafiq qaydada ipoteka kreditinin alınması üçün müraciət edə biləcək.

**Avqust ayının 1-dən etibarən sistem «Elektron hökumət portalı»nın real vaxt rejimində əhalinin istifadəsinə veriləcəkdir**

İpoteka krediti almaq istəyən şəxslər elektron sistemə gücləndirilmiş elektron imza sertifikatı və ya sistemin operatoru olan AİF tərəfindən verilmiş kod-parol ilə daxil ola biləcəklər. Elektron imza sertifikatı və ya kod-parolu olan şəxslər istisna edilməklə, elektron sistemin digər istifadəçilərinin informasiya sistemlərinin və ehtiyatlarının elektron sistemə qoşulması ərizə əsasında həyata keçiriləcək. Ərizə AİF-ə daxil olduqdan sonra ərizəçinin informasiya sistemlərinin və ehtiyatlarının elektron sistemə qoşulmasına və təhlükəsizliyinin təmin edilməsinə dair texniki imkanları 10 iş günü ərzində yoxlanılacaq. Yoxlamanın nəticəsi müsbət olduqda, AİF ilə elektron sistemə qoşulmaq üçün müraciət etmiş qurum arasında müqavilə bağlanacaq.

Elektron sistemin istifadəçisi normativ hüquqi aktların tələblərini, müqavilənin şərtlərini pozduqda və ya sistemin fəaliyyətini ləngidəcək, dayandıracaq və ya ona zərər vura biləcək davranışlara yol verdikdə, AİF tərəfindən onun sistem üzrə fəaliyyəti nöqsanlar aradan qaldırılanadək dayandırılacaq.

**AYTƏN**

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## 2017-ci ilin iyul ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin iyun ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş vergininbəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim etməli** və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2017-ci ilin 2-ci rübünə görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Sadələşdirilmiş verginin bəyannaməsi və
- Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim edilməli** və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

**2017-ci ilin 2-ci rübü üzrə muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi**

*(ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla)*

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim edilməli** və iyun ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir. **(ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ilin yanvar ayının 31-dən gec olmayaraq təqdim edirlər)**

**Xüsusi notariusların gəlir vergisi bəyannaməsi**

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim edilməli** və iyun ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

**Dövlər rüsumu haqqında hesabat**

cari ilin **iyul ayının 20-dək** vergi orqanına **təqdim edilməlidir** (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

**Gəlir və mənfəət vergicinin ödəyiciləri tərəfindən**

2017-ci ilin 2-ci rübü üzrə hesablanmış cari ödəmələr **iyul ayının 17-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində...

***Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi ölkə başçısının 2016-cı il 12 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi»ndə öz əksini tapmış dövlət tərəfindən maliyyələşmənin minimuma endirilməsi və özəl tikinti-investisiya şirkətlərinin əməkdaşlığa cəlb edilməsi istiqamətində bir sıra tədbirləri həyata keçirməyə başlayıb. Agentliyin ilk layihəsi olan Yasamal Yaşayış Kompleksinin tikintisi çərçivəsində özəl investorların müsabiqə yolu ilə dövlət-özəl tərəfdaşlığına cəlb olunması təmin edilib.***

Agentliyin tabeliyində olan «MİDA» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 3 yaşayış binasının (iki 12 mərtəbəli 1 bloklu və bir 9 mərtəbəli 2 bloklu) tikintisi üzrə, habelə ərazidə rabitə, televiziya və internet xətlərinin çəkilməsi və bu sahədə sakinlərə xidmətlərin göstərilməsi üzrə cari ilin iyun ayında elan olunmuş investisiya müsabiqələrinin iştirakçılarının təkliflərinin qiymətləndirilməsi prosesi başa çatdırılıb. Təqdim olunmuş investisiya təkliflərinin dəyərləndirilməsi nəticəsində Yasamal Yaşayış Kompleksi ərazisində 3 çoxmərtəbəli yaşayış binasının tikintisi üzrə birinci investisiya müsabiqəsinin qalibi «KAT Holding» MMC elan olunub. Qalib şirkət investisiya qoyuluşu müqabilində «MİDA» MMC-nin sifarişi ilə hazırlanmış və müvafiq qaydada dövlət ekspertizasından keçirilmiş layihə-smeta sənədlərinə uyğun olaraq tikintini aparmaq, Yasamal Yaşayış Kompleksinin ərazisində təşkil olunan mühəndis-kommunikasiya sistemindən və müvafiq infrastrukturdan yararlanmaq imkanını əldə edir.

Müsabiqə şərtlərinə əsasən, investor tərəfindən inşa olunacaq 12 mərtəbəli 60 mənzillik bir bina Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına veriləcək, həmin binanın yaşayış sahələri «Güzəştli mənzil» elektron sistemi vasitəsilə satışa çıxarılaraq güzəştlə mənzil əldə etmək hüququ olan şəxslərə təklif olunacaq. Digər iki binanın mənzilləri onları bazar qiymətləri ilə almaqda maraqlı olan şəxslərə investor tərəfindən satılacaq. Sözügedən 3 binanın tikintisinin 18 ay ərzində başa çatdırılması, investisiya qoyuluşunun ümumi həcminin isə 10 milyon manatdan artıq təşkil edəcəyi nəzərdə tutulur.



**Strateji Yol Xəritəsinə əsasən, dövlət-özəl tərəfdaşlığı uyğun qiymətə mənzil bazarının fəaliyyətinə əlverişli şərait yaradacaq önəmli mexanizmlərdən biridir**

Strateji Yol Xəritəsinə əsasən, dövlət-özəl tərəfdaşlığı uyğun qiymətə mənzil bazarının fəaliyyətinə əlverişli şərait yaradacaq önəmli mexanizmlərdən biridir. Özəl sektor iştirakçıları ilə tərəfdaşlıq münasibətlərinin formalaşdırılması istiqamətində atılmış bu addım sayəsində MİDA davamlı maliyyə sabitliyini təmin edəcək modelin qurulmasına və eyni zamanda investisiya mühitinin möhkəmləndirilməsinə və sahibkarlığın inkişafına hədəflənən dövlət siyasətinin həyata keçirilməsinə töhfə verəcək.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Pərakəndə satış vergisi Aİ qaydalarına ziddir

Avropa Komissiyası Polşada pərakəndə satışa vergi tətbiq olunmasının qanuna zidd olub-olmadığını müəyyənləşdirmək üçün araşdırmalarını yekunlaşdırmışdır və belə qərara gəlmişdir ki, ölkənin bu addımı atması Avropa İttifaqı qanunlarına ziddir. Məlumat üçün bildirək ki, bu vergi barədə qərar bir il bundan əvvəl - 2016-cı ilin iyulunda qəbul edilmiş, sentyabrında isə qüvvəyə minmişdi. Bundan az sonra Avropa Komissiyası araşdırmanın başa çatdırılmasına qədər pərakəndə satış vergisinin tətbiqinin dayandırılması ilə bağlı Polşa hökumətinə müraciət etmişdi.

Qeyd olunan verginin mahiyyəti bundadır ki, şirkətlər pərakəndə satış üçün hər ay dövriyyənin həcmindən asılı olaraq üç proqressiv dərəcə üzrə vergi ödəyirlər. Avropa Komissiyasının qərarına əsasən, dövriyyəyə əsaslanan proqressiv vergi dərəcəsi dövriyyəsi az olan şirkətlərə öz rəqibləri qarşısında ədalətsiz üstünlük yaradır. Nəticədə kiçik şirkətlər pərakəndə satış üçün ya vergi ödəməkdən azad edilir, ya da iri riteylerlərlə müqayisədə dəfələrlə az vergi ödəyirlər. Avropa Komissiyası məmurlarının tövsiyəsinə əsasən, kiçik şirkətlərin güclü rəqibləri ilə müqayisədə az vergi ödəməsinə yol vermək olar, lakin bu zaman onların dövriyyəsinə uyğun olaraq mütənasiblik düzgün nəzərə alınmalıdr.

Avropa Komissiyasının məruzəsində qeyd edilmişdir ki, Polşanın vergi sistemi Avropa İttifaqı qanunlarına uyğun olmalı, bir şirkətin digər şirkət qarşısında üstünlüyünə yol verməməlidir.

# Hindistanda qızıl satışı özünü «kölgəyə» verir

Xəbər verdiyimiz kimi, iyulun 1-dən Hindistanda qızılın satışı mallar və xidmətlər üçün yeni unifikasiya edilmiş vergi rejimi çərçivəsində 3 faizlik vergiyə cəlb olunur. İndiyədək qızılın satışından 1 faizlik dərəcə üzrə vergi tutulurdu, bundan əlavə, dövlət səviyyəsində tutulan əlavə dəyər vergisinin dərəcəsi də 1 faiz təşkil edirdi.

Hindistanın maliyyə naziri Arun Caytli bildirmişdi ki, 3 faizlik vergi dərəcəsi çoxdan gözlənilən konsensus nəticəsində müəyyənləşdirilmişdir. Qızılın satışına tətbiq edilən vergi eyni qaydada gümüşün və qiymətli daşların satışından da tutulur.

Artıq ölkədə müşahidə olunan hallara əsasən, ekspertlər belə qərara gəlmişlər ki, qızıl satışı «kölgə iqtisadiyyatı»na meyil etməyə başlamışdır. Ölkə əhalisinin öz varidat yığımlarını külçə qızıla çevirməyə üstünlük verdiyi bir ölkə üçün bu addımın atılmasının risk yaratdığı qeyd edilir.

Rəyi soruşan alıcıların əksəriyyəti bildirmişdir ki, onlar qızılı mağazadan çeksiz almağa üstünlük verirlər. Artıq ölkədə qanun və qaydalara əməl edən iri zərgərlik mağazalarından müştəriləri cəlb etmək üçün qeyri-rəsmi satış məntəqələrinin fəaliyyətə başladığı bildirilir.

Ekspertlərin proqnozlarına görə, qızılın satışına qoyulan verginin artırılması ölkədə onsuz da yüksək olan qızıl qaçaqmalçılığının artımına səbəb olacaq. Təxmini hesablamalara əsasən, 2016-cı ildə Hindistan ərazisinə qeyri-leqal yollarla 120 ton qızıl idxal edilmişdir.

# İsveçdə əcnəbilər üçün vergi

Hökumətin təqdim etdiyi yeni qanun layihəsinə əsasən, bu ölkədə çalışan xeyli sayda əcnəbi işçilər xüsusi vergi ödəməli olacaqlar. Hazırda İsveçdə müvəqqəti yaşayan hər hansı əcnəbi işçiyə işəgötürən əməkhaqqını ölkə hüdudlarından kənarda verəndə və onun iş vaxtının ümumi həcmi ildə 189 gün təşkil etdikdə, o, vergidən azad edilir.

Yeni qanun layihəsinə əsasən, İsveçdə yerləşən şirkətlərdə çalışan əcnəbilər dövlətə vergi ödəməli olacaqlar. Bunun üçün əcnəbi işçiyə vergi ödəmək şərti onun hansı müəssisədə çalışmasından asılı olacaq. İsveç hökuməti əcnəbilərin ölkənin vergi orqanlarında qeydiyyatdan keçmələrini də təklif etmişdir.

## Xəbər lenti

**Rusiya**nın Dövlət Duması elmi-tədqiqat və təcrübə-konstruktor fəaliyyəti ilə məşğul olan müəssisələrdən tutulan gəlir vergisinin azaldılmasına dair qanun qəbul etmişdir.

**Belarus** vergi orqanları 2015-ci il üçün «tüfeylilik vergisi» ödəmiş şəxslərin ödədikləri pulu geri qaytarmağa başlamışlar. Rəsmi açıqlamada bildirilir ki, vəsait yalnız o vətəndaşlara qaytarılır ki, onlar artıq işə düzəlmişlər.

**Çin**də son vergi güzəştləri nəticəsində bu il ümumilikdə biznes qurumlarının vergi yükü təxminən 1 trilyon yuan (147 milyard dollar) azalmışdır. Bu, əvvəllər qəbul edilmiş yeni ƏDV rejiminin tətbiqi ilə bağlı islahatlar zamanı qeydə alınmış göstəricidən əhəmiyyətli dərəcədə artıqdır.

**G20** ölkələri bu ilin sentyabr ayından vergi informasiyalarının avtomatik mübadiləsinə başlamağa hazırlaşırlar. İyirmiliyin Hamburqda keçirilən sammitinin kommunikesində bu barədə qeyd edilmişdir. G20-yə daxil olan ölkələrin rəhbərləri BEPS sxeminin həyata keçirilməsi öhdəliklərinə sadiq olduqlarını bildirərək, bütün dövlətləri bu planın həyata keçirilməsinə çağırmışlar.

**Moldova**da fiziki şəxslərin əmlak vergisindən dövlət büdcəsinə iyunun sonunadək 315,5 milyon ley (29,6 milyon manat) vəsait daxil olmuşdur. 2017-ci il üçün bu vergi üzrə plan 426,2 milyon ley (40 milyon manat) təşkil edir. İlin ilk altı ayının nəticələrinə əsasən, əhalinin cəmi 5 faizi bu vergini ödəmişdir.



# Türkmənistanda sosial güzəştlər ləğv edilir

Ölkə Prezidenti Qurbanqulu Berdimuhamedov sosial güzəştlərin bazar iqtisadiyyatına keçid üçün əngəl olduğunu bildirərək hökumətə bu güzəştlərin tədricən aradan qaldırılması barədə göstəriş vermişdir. Prezident qeyd etmişdir ki, güzəşt sistemi tamamilə səmərəsiz olmuşdur. Artıq bütün sosial güzəştlərin ləğv edilməsi ilə bağlı Baş nazirin iqtisadiyyat və maliyyə məsələləri üzrə müavininə təkliflər hazırlamaq barədə tapşırıq verilmişdir. Dövlət başçısı demişdir: «Güzəştlər hamıya tətbiq olunmamalıdır, yalnız həqiqətən sosial yardıma ehtiyacı olan şəxslərə verilə bilər».

Ölkədə sosial güzəştlərin tədricən ləğv edilməsi barədə Berdimuhamedov ilk dəfə keçən ilin iyun ayında bəyanat vermişdi. Hazırkı proseslərin gedişi göstərir ki, yaxın zamanlarda bu sahədə real addımlar atılacaq və ölkədəki «sosial cənnət» öz ömrünü başa vurmuş olacaq.

Qeyd edək ki, ölkənin ilk Prezidenti Saparmurad Niyazovun vaxtından Türkmənistan dünyada əhalinin sosial müdafiəsinə görə seçilən ölkələrdən biri hesab edilirdi: ölkə əhalisinə elektrik enerjisinin, təbii qazın, suyun və xörək duzunun pulsuz istehlakı üçün müəyyən limit qoyulmuşdu; bundan əlavə, regionun digər ölkələri ilə müqayisədə çörəyin və benzinin qiyməti xeyli ucuz idi.

Ekspertlərin rəyinə görə, 1993-cü ildən tətbiq edilməyə başlanmış bu güzəştlər ölkənin reklamına xidmət etsə də, iqtisadi inkişafa, son nəticədə əhalinin həyatının, rifah səviyyəsinin yüksəlməsinə ciddi şəkildə mane olmuşdur. Əhaliyə işıq, qaz, su güzəştlərlə verilsə də, bu sistemlər olduqca keyfiyyətsiz fəaliyyət göstərmişdir və hazırda sıradan çıxmaq təhlükəsi qarşısındadır.

Türkmənistanın, demək olar ki, yeganə gəlir mənbəyi neft və qaz sənayesidir. Dünya iqtisadiyyatında baş verən böhran və neftin qiymətinin ucuzlaşmağı hökuməti realist addım atmaq zərurəti qarşısında qoymuşdur.

# Varlılar daha çox vergi ödəyəcəklər

Cənubi Koreyanın yeni Prezidenti Mun Çje İn vergi sisteminin nəzərdə tutulan islahatı haqqında məlumat vermişdir. Onun sözlərinə görə, hökumət ölkə iqtisadiyyatında dominantlıq edən ən varlı vergi ödəyicilərindən və iri konqlomeratlardan tutulan vergini artıracaq. Yerli KİV-in məlumatına əsasən, dövlət başçısı əvvəlki hakimiyyət tərəfindən yürüdülən «ədalətsiz» vergi siyasətinin kökünü kəsmək niyyətindədir.

Bundan əlavə, hökumət Cənubi Koreyada yeni vergi sisteminin işlənilib hazırlanması üçün komitə təşkil etmişdir. Gözlənildiyinə görə, yeni vergi sistemi aşağı və orta gəlirli vergi ödəyiciləri üçün daha geniş güzəştləri əhatə edəcək. Təkliflər arasında əhalinin vergi tutulan gəlirlərindən icarə ödənişlərinin müəyyən hissəsinin çıxılması da var.

# Vahid baza vergidən yayınmanın qarşısını alacaq

Avropa İttifaqının vergilər üzrə komissarı Pyer Mosovisi təklif edilmiş korporativ vergilərin tutulmasına vahid konsolidə olunmuş bazanın (CCCTB - common consolidated corporation tax base) «vergidən yayınanlara qarşı həlledici alət olduğunu» bildirmişdir. O qeyd etmişdir ki, CCCTB bütün Avropa İttifaqı üzrə vergi tutulan gəlirlərin hesablanmasında şirkətlər üçün vahid qaydalar təmin edəcək. Moskivisinin sözlərinə görə, «iri transmilli şirkətlər bundan sonra öz vergi öhdəliklərinin məbləğini azaltmaq üçün ayrı-ayrı ölkələrin sistemləri arasındakı uyğunsuzluqlardan, güzəştli vergi rejimlərindən sui-istifadə edə və transfer qiymətqoyma ilə oynaya bilməyəcəklər».

Buna baxmayaraq, Pyer Moskovisi Avropa İttifaqının bütün üzv dövlətlər üçün vahid korporativ verginin dərəcəsini müəyyənləşdirə biləcəyinə inanmır. Onun qənaətinə görə, vergi qaçaqlarının sayı minimuma endiriləndə şirkətlər və vergi ödəyiciləri «eyni meydanda oynamalıdırlar».

## krossvord



**Yuxarıdan aşağı:** 1.SSRİ dövründə dövlətə tabe olan kollektiv kənd təsərrüfatı, təsərrüfat birliyi; 2.Kazinolarda qumar oyunu üçün xüsusi qurğu; 3.XVIII əsrin əvvəllərində Fransada yaranmış dini-etnik hərəkat üzvü; 4.Qara dənizin şimal-qərb sahilində yerləşən şəhər; 5.Kimyəvi element (qaz); 6.İt cinsi; 9.Ailə vəziyyəti; 13.Pulun müxtəlif formalarının dəyəri, həmçinin bankın götürdüyü və verdiyi kreditlər üzrə faiz dərəcələri arasında fərq; 15.Suriya ərazisində yerləşən qədim şəhər; 16.Şirvan xalçaçılıq məktəbinə aid Azərbaycan xalçaları. Ucar rayonunda kənd adı; 17.Linqvistikada deyilişi və yazılışı eyni olan, lakin leksik mənalarına görə tamamilə fərqlənən sözlər; 18.Güclü dövlətin nisbətən zəif dövlətə öz şərtlərini, tələblərini zorla qəbul etdirmə siyasəti; 20.Məhv olma həddində olan pişiklər fəsiləsinin qar bəbirləri cinsinə aid heyvan növü; 21.İndoneziyanın Yava adasında yerləşən ən aktiv vulkanlardan biri. **Soldan sağa:** 1.İtaliya mətbəxində pizza şəklində rulet; 5.Müğənni tərəfindən ifa edilən, danışılan və ya oxunan qafiyələşmiş musiqi janrı; 7.İspaniya rəssamı; 8.Hər hansı xalqın həyatında qədimdən bəri qəbul edilmiş və kök salmış ənənə, vərdiş; 10.Alkanlar sinfindən doymuş karbohidrogen; 11.Çin ilahəsi; 12.Respublikamızda şəhər; 14.1960-cı illərdə ABŞ-da başlayan və digər ölkələrə yayılan cərəyana məxsus şəxs; 19.Kimyəvi element (metal); 21.Avtomobil idmanı üzrə 1000-2000 km məsafədə keçirilən yarışlar kompleksi; 22.Yaponiyada qadın gözəlliyinin atributu hesab olunan əyri dişlər; 23.Paytaxtımızda mehmanxana; 24.Fransada şəhər; 25.Həmişəlik və ya müəyyən müddətə iş axtarmaq məqsədilə və ya siyasi və dini səbəblərə görə digər ölkəyə köçən şəxs.



*Suriya ərazisində yerləşən qədim şəhər*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Manama; 2.Rorayma; 3.Eriks; 4.İsland; 5.Reqbi; 6.Qurban; 9.Ərkə; 13.Brom; 15.Displey; 16.Skuter; 17.Renuar *(Pyer Oqüst)*; 18.Zeynəb; 20.Lahıc; 21.Qomes *(Mario)*. **Soldan sağa:** 1.Marketinq; 5.RPQ; 7.Nərminli; 8.Aqir; 10.Mayıs; 11.Nereida; 12.Sambo; 14.Bərdə; 19.Kalzone; 21.Qusle; 22.Taho; 23.Turmalin; 24.Rac *(Kapur)*; 25.Əfrasiyab.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Velosipedçilərimizdən növbəti reytinq xalları

Velosiped idmanının şose növü üzrə İtaliya və Belarusda keçirilən yarışlar Azərbaycan yığma komandalarının üzvləri üçün növbəti reytinq xalları ilə əlamətdar olub. İdmançılarımız bu yarışlarda 33 xal əldə ediblər.

Azərbaycan Velosiped İdmanı Federasiyasından verilən xəbərə görə, İtaliyada qadın velosiped komandaları arasında təşkil olunan sayca 28-ci «Giro d'Italia Internazionale Femminile» 10 mərhələli dünya turu yarışında Qazaxıstanın «Astana» klubunun heyətində çıxış edən yığma komandamızın üzvü Yelena Pavluxina 18 reytinq xalı əldə edib. Birinci mərhələdə komanda ötüşməsində 7-ci olan Y.Pavluxinanın qazancı 10 xal olub. On mərhələnin yekununda isə velosipedçimiz ümumi təsnifatda 17-ci yeri tutmaqla daha 8 xal qazanıb.

Belarusun paytaxtı Minskdə təşkil olunan 1.2 kateqoriyalı birgünlük «Minsk Cup» yarışında isə ölkəmizin elit yığması və «Synergy Baku» kontinental komandasının üzvü Elçin Əsədov fərqlənib. O, turnirdə 5-ci yeri tutmaqla ölkəmizin aktivinə daha 15 xal əlavə edib.

Qeyd edək ki, idmançılarımızın yarışlarda qazandıqları xallar Azərbaycanın dünya reytinqində irəliləməsi ilə yanaşı, dünya və Avropa çempionatlarında daha çox sayda idmançı ilə təmsil olunmasına da şərait yaradır.





# Sərbəst güləşçilərimiz beynəlxalq turnirdə...

Rusiya Federasiyası Dağıstan Respublikasının Kaspiysk şəhərində beşqat dünya çempionu Əli Əliyevin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə 48-ci beynəlxalq turnir keçirilib. Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, turnirdə iştirak edən sərbəst güləş yığmamızın üzvləri 2 qızıl, 2 gümüş və 4 bürünc medal qazanıblar.



Keçirdikləri bütün görüşləri qələbə ilə başa vuran Mahir Əmiraslanov (57 kq) və Aslanbek Alborov (97 kq) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb və turnirin qızıl medalını qazanıblar. Yalnız final görüşündə uduzan Ağahüseyn Mustafayev (65 kq) və Aleksandr Qostiyev (86 kq) gümüş medalla kifayətləniblər.

Bürünc medalları isə yığmamıza Georgi Edişeraşvili, Pərviz İbrahimov (hər ikisi 57 kq), Qalib Əliyev (61 kq) və Məhəmməd Müslümov (65 kq) qazandırıblar.

# Peşəkar boksçumuz nokautla qalib gəldi

Azərbaycanın və «Qəbələ» idman klubunun boksçusu Zamiq Atakişiyev peşəkar rinqdə növbəti döyüşünü keçirib. 31 yaşlı idmançımızın peşəkarlar arasındakı 4-cü sınağı Rusiyanın Maqnitoqorsk şəhərində baş tutub. O, İvan Romazan adına İdman sarayında təşkil olunan boks gecəsində qüvvəsini sınayıb.



Ağır çəki kateqoriyasında çıxış edən Z.Atakişiyev reytinq döyüşündə Latviya təmsilçisi Edgars Kalnars ilə qarşılaşıb. Boksçumuz emosional və baxımlı alınan döyüşün ilk saniyələrindən üstünlüyü ələ alıb. Artıq 1-ci raundda onun zərbəsindən sonra rəqib rinqə yıxılsa da, özündə güc taparaq ayağa qalxıb. Lakin Zamiqin güclü zərbələri latviyalı idmançının döyüşü başa çatdırmasına imkan verməyib. İkinci raundda təmsilçimiz texniki nokautla qələbə qazanıb. Beləliklə, 6 raund davam etməli olan görüş 2-ci hissədə başa çatıb.

Xatırladaq ki, bunadək peşəkar rinqdə 3 döyüş keçirən Z.Atakişiyev bütün görüşlərdə qələbə qazanıb.

# Azərbaycan klublarından Avrokubok yarışlarında maksimum nəticə

**Bakının «İnter» və «Zirə» futbol klubları UEFA Avropa Liqası yarışlarının ikinci təsnifat mərhələsinə vəsiqə qazanıblar**

İyulun 6-da «Dalğa Arena»da Serbiyanın «Mladost» komandasını qəbul edən «İnter», ilk matçda olduğu kimi, təkrar qaşılaşmada da rəqibinə heç bir şans verməyib. Görüşə fəal başlayan təmsilçimiz Denis Silvanın qolu ilə rəqib komandanı meydanın mərkəzinə dəvət edib. Görüşün ilk hissəsi «İnter»in minimal üstünlüyü ilə yekunlaşıb - 1:0. İkinci hissə də «İnter»in üstünlüyü şəraitində keçib. 74-cü dəqiqədə Pərdis Fərcad Azadın ötürməsini qolla tamamlayan Nizami Hacıyev azarkeşlərini sevindirib.

Beləliklə, görüş «İnter»in 2:0 hesablı qələbəsi ilə başa çatıb. Komandalar arasında bir həftə əvvəl Serbiyada keçirilən ilk oyunda da «İnter» qalib gəlib - 3:0. İki görüşün nəticəsinə görə, «İnter» UEFA Avropa Liqasının ikinci təsnifat mərhələsinə yüksəlib. Komandamızın növbəti rəqibi Lüksemburq təmsilçisi «Fola» olacaq.

UEFA Avropa Liqasında debüt edən Bakının «Zirə» futbol klubu da əla nəticə göstərib. İlk qarşılaşmada Bakıda Lüksemburqun «Differdange» klubuna 2:0 hesabı ilə qalib gələn təmsilçimiz səfərdə də rəqibindən üstün olub.

Görüşün 11-ci dəqiqəsində lüksemburqlular hesabda önə çıxsalar da, komandamız əzmkarlıq nümayiş etdirərək matçın ikinci hissəsində David Manqa və Riçard Qadzenin vurduğu qollar sayəsində qələbəni bayram ediblər - 2:1. Komandanızın növbəti rəqibi Ruminiyanın «Astra» komandası olacaq.

Qeyd edək ki, növbəti mərhələnin ilk oyunları iyulun 13-də, cavab görüşləri isə iyulun 20-də keçiriləcək.

## mozaika

aktual

# Günvurmadan qorunmaq üçün...



Havanın temperaturunun yüksək olması bəzən orqanizmdə müəyyən fəsadlara, o cümlədən günvurmaya səbəb olur. Günvurma orqanizmin ətraf mühitin yüksək temperaturuna patoloji reaksiyasıdır. Kliniki Tibbi Mərkəzin həkimi, Bakı şəhərinin baş terapevti Rəhilə Əliyevanın məsləhətlərini diqqətinizə çatdırırıq.

Günvurmanın risk amilləri sırasına orqanizmin qızmar günəş şüalarının təsirinə məruz qalması, atmosferdə nəmliyin yüksək olması, bədənə kip yapışan sıx paltar geyinilməsi, alkoqol qəbulu, ürək-damar xəstəlikləri və digər səbəblər daxildir. Kliniki mənzərə günvurmanın dərəcəsindən asılıdır. Yüngül halda zərərçəkən yorğunluq, zəiflik, baş ağrısı, güclü tərləmə, ürəkbulanması və ürəkdöyünmə hallarından şikayət edir. Ağır hallarda baş ağrısı, baş gicəllənməsi, ürəkbulanma, qusma, kəskin zəiflik, hətta bəzən huşun itməsi - kollaptoid baş verə bilər.

Müayinə zamanı dəri tərli, bəzən də quru olur, tənəffüs tezləşir, arterial təzyiq enir. Hipertoniya xəstələrində arterial təzyiqin yüksəlməsi də mümkündür. Bədənin temperaturu 39-40 dərəcəyə kimi yüksəlir, temperaturun 41-42 dərəcəyə yüksəlməsi zərərçəkənin həyatını itirməsi ilə də nəticələnə bilər.

Zərərçəkənə yardım göstərmək üçün ilk növbədə onu sərin otağa və ya kölgəlik yerə aparıb düz yerdə uzatmaq, rahat nəfəs alması üçün paltarının yaxasını açmaq lazımdır. Ona tez-tez, azacıq duzlu su içirmək, üz, əl və sinəsini soyuq su ilə islatmaq və ya soyuq su ilə isladılmış parça ilə silmək məsləhətdir. İlkin yardımı göstərməklə yanaşı, təcili tibbi yardım çağırıb zərərçəkəni yaxınlıqdakı müalicə məntəqəsinə çatdırmaq vacibdir. Ağır hallarda xəstə reanimasiya şöbəsinə yerləşdirilir. Ağırlıq dərəcəsindən asılı olaraq zərərçəkəndə miokard infarktı, aritmiya, ağciyər ödemi, qıcolma tutmaları, böyrək çatışmazlığı və digər halların baş verməməsi üçün bunları etmək zəruridir.

Günvurmadan qorunmaq üçün əhali arasında maarifləndirmə işi aparılmalıdır. Havanın çox isti vaxtlarında mümkün qədər örtülü, sərin yerlərdə qalmaq, yüngül baş örtüyü, çətir, gün eynəklərindən istifadə etmək, gün ərzində 2-3 litrə qədər maye qəbul etmək məsləhət görülür. Xüsusilə xəstə, qoca və uşaqları havanın çox isti vaxtlarında günəşin yandırıcı şüalarından qorumaq, çimərliklərdə və açıq havada olmaqdan çəkinmək də mühüm şərtlərdən biridir.

təbiət

# Ürəkşəkilli çiçək



Antirium çox şıltaq və bahalı dekorativ otaq bitkisidir. Onu bəzən «odlu dil» və ya «flaminqo gülü» adlandırırlar. Cənubi və Mərkəzi Amerikanın tropik əraziləri bitkinin vətəni hesab olunur. Digər tropik bitkilər kimi, antirium da xüsusi şərait və qulluq tələb edir.

Bitkinin adı yunan dilindən tərcümədə «antos» gül, çiçək, «yre» isə quyruq deməkdir. Bəzi xalqlarda onu «kişi xoşbəxtliyi» də adlandırırlar. Zərifliyinə görə, floristikada ondan hədiyyələrin bəzədilməsində istifadə olunur. Antirium güldanda suyun içərisində dörd həftəyə qədər təravətli qalır. Bitki əhval-ruhiyyəyə təsir edərək gücü artırır, yorğunluğu azaldır və gümrahlıq bəxş edir. Onun tünd-yaşıl rəngdə sərt yarpaqları ürək və ox şəklində olur, demək olar ki, il uzunu çiçəkləyir. Çiçəklərinin özünəməxsus özəlliyi və qəribə forması var. Rəngləri qırmızı, ağ və ləkəli olur. Otaq şəraitində onun ömrü iki-üç ildən bir qədər artıq olur, sonra yarpaqlarını tökməyə başlayır. Antiriumun çox növü olsa da, onların hamısını otaqda yetişdirmək mümkün deyil. Bitkiyə yaxşı qulluq göstərəndə yazdan yaya qədər çiçəkləyir. İstiliksevən bitkilərə aid olan antirium təzə, təmiz havanı çox sevir, rütubətdən xoşu gəlmir, işıqlı yerlərdə özünü yaxşı hiss edir.

Kolumbiyanın tropik rayonlarında antiriumun çiçəkləri ni əsl «bal ayı» rəmzi hesab edirlər. Yerli əhalinin inancına görə, bitki yeni ailə quranlara xoşbəxtlik gətirir. Ailə həyatının ilk ayında evi antiriumla bəzəmək və onu otaqda saxlamaq düşərli hesab olunur.

texnologiya

# Səsli siqnal kağız biletləri əvəz edəcək

«Ticketmaster» şirkəti «Lisnr» startapı ilə birgə yüksəktezlikli siqnallardan bilet qismində istifadəyə imkan verəcək texnologiya hazırlayır. 18,7-19,2 kilohers takt tezlikli siqnalı istənilən mobil qurğudan, məsələn, smartfondan səsləndirmək mümkündür. Bunun üçün qurğunu bilet haqqında informasiyanı oxuyaraq istifadəçinin şəxsiyyətini təsdiq edən xüsusi skanerə yaxınlaşdırmaq tələb olunur. Mütəxəssislərin sözlərinə görə, texnologiya simsiz internetə çıxış, «Bluetooth» interfeysi və ya «NFC» modulundan istifadəni tələb etmir. Hazırlanan biletlərin tətbiqi üçün yeganə tələb olunan qurğu «Android» və ya «iOS» əməliyyat sisteminin idarəetməsi ilə işləyən smartfon, eləcə də səsli siqnalları təhlil edən skanerdir.

Hazırda şirkətlər texnologiyanın təhlükəsizlik səviyyəsinin artırılması ilə məşğuldurlar. Həmçinin şirkətlərin nümayəndələri bildirirlər ki, texnologiyanın tətbiqi üçün az miqdarda maddi vəsaitə ehtiyac duyulur. Məhsulun hazır versiyasının yaxın dörd il ərzində ərsəyə gətiriləcəyi gözlənilir.




cəmiyyət

# Yaponiya əhalisi azalır

Yaponiyada əhali artıq səkkiz ildir fasiləsiz olaraq azalır. Bu barədə Ümummilli Məsələlər, Yerli Muxtariyyət və Rabitə Nazirliyinin yaydığı məlumatda bildirilir. Qeyd edilir ki, cari il yanvarın 1-ə olan məlumata görə, ölkə əhalisinin sayı 125 milyon 580 min nəfərdir. Bu, əvvəlki ilin göstəricisi ilə müqayisədə əhalinin 300 min nəfər azalması deməkdir.

Azalma sayı bu statistikanın aparılmağa başladığı 1968-ci ildən bəri ən yuxarı göstəricidir. Ölkə əhalisinin sayının 2009-cu ildə ən yüksək həddə çatdığı qeyd olunur. Əlavə olaraq bildirilir ki, ölkədəki 47 prefekturadan 41-də əhalinin azalması qeydə alınıb. Son beş ildə bu göstərici Hokkaydo prefekturasında ölkə üzrə ən yüksək olaraq qalıb. Burada əhalinin təqribən 33 min nəfər azaldığı bildirilir. Bununla yanaşı, Tokioda və beş digər prefekturada əhalinin sayının artdığı qeyd edilir. Artıq 21 ildir ki, davamlı olaraq artan paytaxt sakinlərinin sayı təqribən 13 milyon nəfər təşkil edir.

Yaponiyada yaşayan əcnəbilərin də sayı ötən illə müqayisədə 150 min nəfər artaraq 2 milyon 320 min nəfərə çatıb. Bu, həmin statistikanın aparılmağa başladığı 2013-cü ildən bəri ən yüksək göstəricidir.



**Müdriklər deyib ki...**

*«İnsanlar işığı görməz, işıqla görər».*
*İmmanuel Kant (1724-1804)*

